# YAŞAR

## HEKAYƏLƏR TOPLUSU

# RAHATLIQ

*(Hekayə)*

Əmrah oğlunu yanına salıb qonşu kəndə, qızının evinə gələndə hava qaralmışdı. Arvadı öləndən Əmrah yaman sınıxmışdı.

Hər dəfə o arvad yuxusuna girəndə diksinib oyanardı, bütün gecəni halı özündə olmazdı, səhər o başdan bir qurtum su da içməzdi, birbaş qəbiristanlığa yollanardı.

Siftə-siftə qəbrin yan-yörəsini ot-ələfdən təmizləyəndə əlinə dinclik verməzdi, dayanıb bir hovur nəfəsini dərməzdi. İndi Əmrah hər gələndə qəbrin bir böyründə, yaş torpağın üstə heysiz-hərəkətsiz oturub qalardı, gün-gündən boy atıb uzanan otlara baxıb köksünü ötürərdi.

Oğlu dünən gəlmişdi. Gəlmişdi, ev-eşiyi satıb atasını özüylə şəhərə aparsın. Əslində, Surxayın pula ehtiyacı yox idi. Amma anası öləndən Surxay elə bil qəflətən ayılıb bilmişdi ki, daha atasını bu evin umuduna qoymaq olmaz. Əvvəllər illərlə səs-sorağı çıxmayan Surxay indi hər ay atasını yoluxmasa toxtaya bilmirdi.

Dünən axşam Surxay axır ki, dilləndi. Əmrah bir xeyli fikirli-fikirli oğluna baxıb, sonra dinməzcə yatmağa getdi. Surxay başa düşdü ki, atasını aparmaq üçün bu ev-eşiyi də yanına salıb özüylə şəhərə aparmalıdı. Surxay bu gecə çıxıb gedəcəkdi. İndi də bacısıyla görüşməyə gəlmişdi.

Darvazanı Dilbər açdı. Əli-qolu sabunluydu. Deyəsən paltar yuyurdu.

Əmrah:

- Salam, - dedi, - ərin necədi? – amma cavab gözləmədi, ağır-ağır pilləkəni qalxdı.

Dilbər atasının ardınca dönüb darvazanı bağlamaq istəyəndə qardaşını görüb nəsə özünü itirən kimi oldu. Çünki, axırıncı dəfə anasının dəfnində rastlaşdığı qardaşı hələ indiyəcən onun evinə ayaq qoymamışdı.

...Elə o vaxt da həyət-bacanın adamla dolu olduğu həmin o  gündə də qardaşıyla görüşəcəyi Dilbərin ağlına da gəlməzdi. Kişilər həyətdə üç-üç, beş-beş dayanıb söhbətləşirdilər. Əmrah da o kişilərin içindəydi, tez-tez eyvana qalxırdı, gözucu meyitə baxırdı, səssizcə qayıdıb kişilərin arasına girirdi, cibindən təsbeh çıxarırdı,

amma fırlatmırdı, təsbehin dənələrini bircə-bircə ağzına aparıb dişiylə çəynəyə-çəynəyə deyəsən bir balaca toxtaqlıq tapırdı.

Eyvana yığılan arvadların hönkürtüsü həyəti başına götürmüşdü. Pərinisə arvadın meyiti eyvanın düz ortasındaydı. Dilbər meyitin baş tərəfində oturmuşdu, ağlamayan da elə təkcə özüydü. Dilbər, deyəsən çox ağlamışdı, yorulmuşdu, indi də dırnaqlarıyla dinməzcə üz-gözünü cırırdı. Qəflətən araya sükut çökdü. Bəlkə artıq meyiti dəfn eləməyin vaxtı çatmışdı? Dilbər başını qaldırdı. Qara kostyumda, ağ köynəkdə bir kişi ağır-ağır pilləkəni qalxırdı. Hamının gözü o kişiyə dikilmişdi. Əmrah da eyvana qalxmışdı, amma indi meyitə gözünün qırağıyla da baxmırdı, həmin kişiyə baxırdı. Əmrahın sifəti bu dəqiqə yaman qəribəydi. Bilmirdi, sevinsin ya ağlasın. Amma vallah, kim nə deyir desin belə bir oğul doğan anaya ağlamaq günah idi. Əmrah kişi yaxınlaşıb əlini Surxayın kürəyinə qoydu:

- Axır qəmin olsun, - dedi, başqa söz tapa bilmədi, çünki bu saat beynində bayaqdan bəri ona başsağlığı verən camaatın dilindən eşitdiyi bu sözdən savayı söz yox idi.
Sonra dönüb meyitin örtüyünü qaldırdı və arvadına baxanda eynən öz sifətini gördü. Deyəsən o meyit də camaatın gözündən yayındığını hiss eləyib oğlunun gəlişinə sevinirdi.

Əmrah lap özünü itirdi. Pərinisə arvad elə bil indicə gözlərini açıb oğluna «xoş gəlmisən» deyəcəkdi.

Əmrah diksinib birnəfəsə:

- Oğlum, ananla sağollaş, - dedi, təsbehi cibindən çıxarıb təzədən həyətə düşdü. Meyitin üstə ikisi qalmışdı. Dilbər qardaşına baxırdı. Hərdən-hərdən televizorda gördüyü bu kişidən ötrü yaman darıxmışdı. Amma nədənsə Dilbərə elə gəlirdi ki, qardaşının gəlişi də, anasının dəfninə yığılan bu camaat da onun yuxusuna girib. Elə bil yasa batmış bu ev-eşik nəsə bağlı bir qutunun içindəydi. Çünki Surxay bacısına eynən televizordan baxdığı kimi baxırdı.

Surxayın gözləri bacısının üzünə zillənmişdi:

- Bu nə sir-sifətdi, - dedi, - get əl-üzünü yu.

Surxayın ona nə dediyini anlamasına da indicə eşitdiyi bu səsi Dilbər min səsin içindən seçərdi. Görünür, döşəməyə uzadılan bu qupquru qurumuş ananın ruhu bədənindən çıxsa da, öz ruhsuz canının həndəvərində qardaşla bacını görüşdürməyə birtəhər güc tapmışdı.

İki arvad yaxınlaşıb Dilbərin qolundan tutdu, onu qaldırıb apardılar.

Surxay tək qalmışdı, gözlərini anasının üzünə zilləmişdi, ağappaq ağarmış o sifətin hər cizgisinə bir xeyli diqqətlə baxıb, sonra üzünü yana çevirirdi. Görünür, o sifəti yaddaşına köçürürdü, qoy sonra nə vaxtsa anası yadına düşəndə o sifəti hörüb-qurmaqdan ötrü çətinlik çəkməsin...

Amma indi bacısına baxanda başa düşdü ki, bu neçə vaxtı özünü nahaqdan əziyyətə salıb. İndi tələsik əl-qolunun sabununu donunun ətəyinə silə-silə üzünü Surxaya tutub:

- Burada niyə durmusuz, içəri keçin, - deyən bacısı səsindən tutmuş ətəyindəki sabun köpüyünəcən elə bil dipdiri anasıydı.

Oturmuşdular. Surxay tez-tez saatına baxırdı, deyəsən tələsirdi. Dilbər mətbəxdə çay dəmləyirdi, hərdən-hərdən arakəsmənin qapısından oğrun-oğrun qardaşına baxırdı. Otaq tör-töküntüydü, əri çarpayıda uzandığı yerdəcə Əmrahla söhbətləşirdi, körpə qızı öz atasına qısılıb yuxuya getmişdi.

Dilbər ürəyində: - Biabır oldum, - dedi, - bilsəydim Surxay gələcək yır-yığış eləyərdim. Amma nə xeyri, bu bircə otağı nə qədər səliqə-səhmana salsaydı, yenə axşam bu kökə düşəcəkdi.

Gözünü qardaşından çəkən kimi Dilbəri ərinin fikri götürdü.

Muradın yatağa düşdüyü iki həftədən çox olardı. İşdən qayıdan kimi:

- Soyuqlamışam – demişdi.

Dilbər kişisini yatağa salıb araqla ovxalayandan sonra yorğanla üstünü bərk-bərk basdırmışdı ki, tərləyib sağalsın. Amma odu-budu azar Muradın canından çıxmırdı. Muradın anası Güllü keçən həftədən burdaydı. İki-üç günlüyə oğlunun yurd-yuvasına baş çəkməyə gəlmişdi. Amma indi oğlunu bu halda qoyub öz yurd-yuvasına qayıda bilmirdi.
Güllü arvad divanda oturub mütəkkəyə dirsəklənmişdi, gah oğluna, gah da Əmraha baxırdı. Əmrah kimi bir kişinin qanadı altına sığınan oğlundan narahat olmağa dəyməzdi. Nə yaxşı ki, Allah onun bircə balasını belə bir evə qismət eləmişdi, belə bir kişiyə rast gətirmişdi. Lap dünya dağılsaydı belə Əmrah Muradı korluq çəkməyə qoymazdı. İndi Güllü arvad ürəyində Əmrah kişiyə dua eləyirdi: «Allah səni mənim balama çox görməsin» -deyirdi. Buradan qayıdan kimi Güllü arvad ürəyindən keçənləri bircə-bircə kişisinə də çatdıracaqdı. «Özünü üzmə, dərd çəkmə, vallah-billah balamızın bizə ehtiyacı yoxdu» - deyəcəkdi.

Qoy kişisi də qəbirdə rahat yatsın.

Əmrah bayaqdan Murada öyüd-nəsihət eləyirdi, amma bir gözü nəvəsində qalmışdı. Murad yatağa düşəndən Əmrah kişi hər dəfə bu evə gələndə o uşağı atasının böyründə görərdi. Hələ yaşı tamam olmayanda özüylə dünyaya qoşa gətirdiyi bacısını itirən bu körpə balasını Murad yaman çox istəyirdi. Görünür, yazıq uşaq axır günlər atasını bu halda görüb qorxuya düşmüşdü.

Əmrah mətbəxə sarı dönüb:

- Qızım, bu uşaq yatdı, - dedi, apar rahatla. Dilbər yerə döşəkcə sərib çarpayıya yaxınlaşdı, qızını qucağına aldı.

Qəflətən Əmrahın nəsə elə bil tükü ürpəşdi. Bir vaxtlar həmişə Əmrah evə yorğun qayıdardı. Balaları hələ körpəydi, indidən onlara bir gün ağlamalıydı. Ac qarnını doyurmağa da vaxtı olmazdı, tələsik paltarını soyunub səssizcə yerinə girərdi ki, balalarını oyatmasın.

Amma Dilbərlə Surxay bütün günü oyaq qalıb onun yolunu gözlərdi. Əmrah gözünü yuman kimi onun qucağına atılardılar. Dilbərlə Surxay atasının qucağında oynaya-oynaya yuxuya gedərdi. Onda Əmrahın bu iki balasından ötrü yorduğu bədəninə nəsə elə bil qəflətən güc gələrdi. Arvadını haylayıb: - Uşaqlar yatdı, - deyərdi, - apar rahatla. Pərinisə uşaqları bir-bir qucağına alıb döşəkçəyə uzadanda Əmrah gözünü arvadından çəkə bilməzdi. Deyəsən, Əmrah bu iki balasının anasını ancaq o gecələrdə sevərdi. Ata kimi, bala kimi sevərdi. Düz səhərəcən o iki uşaqdan gizlində qol-boyun olub sevişərdilər...

İndi Əmrah büzüşüb oturmuşdu, nə oğluna, nə də qızına baxa bilirdi. Elə bil nə vaxtsa gecələr özündən ötrü o iki balasından oğurladığı anaya görə xəcalət çəkirdi.

Sonra başını qaldırıb yazıq-yazıq qızına baxdı. Dilbər öz qızını döşəkçəyə uzadıb yerini rahatlayırdı. Əmrah kişi elə o sifətlə arxaya, oğluna sarı qanrıldı. Deyəsən, Surxay da saatına baxa-baxa yuxulamışdı. Görünür, təkcə o gecələr yox, Əmrahla Pərinisənin bütün ömrü bu iki balasından gizlində keçmişdi. Əmrah kişi dərindən köksünü ötürüb belini dikəltdi.

Dilbər əyilib yorğanla qızının üstünü örtəndə uşaq qəflətən yuxudan səksənib gözlərini açdı. Dilbər:

- Qızım, yat, - dedi – amma uşaq gözlərini anasına zilləyib elə bil ondan nəsə istəyirdi.
Bu qızın öz əkiz bacısını itirdiyi vaxtdan Dilbərin hər günü beləydi. Dilbər imkan eləyib öz doğmaca balasına da doyunca ağlaya bilmədi. Evin işini-gücünü

qurtarandan sonra oturub bir hovur dincəlmək istəyəndə ölən balası yadına düşərdi. Onda Dilbəri qəhər boğardı. Amma Süsən hər dəfə gəlib anasının qabağında dayanardı. O uşağın bütün günü anasının ardınca mətbəxi, eyvanı gəzən gözləri bu dəfə düz Dilbərin gözlərinə zillənərdi. Bir kəlmə də dinib-danışmazdı, baxmağı da həmişə eyni cür olardı. Elə bil o uşaq hər dəfə o dupduru, dilsiz gözləriylə yalnız bircə şey soruşardı: «Niyə məni tək qoydun?»
Təkcə gecələr yuxuya gedəndə Süsənin üzünə sakitlik, rahatlıq çökərdi. Bəlkə də o uşaq bütün günü axtardığı bacısıyla yuxuda görüşərdi.

Dilbər:

- Yatdı, - deyib, başını qaldırdı, yan-yörəsinə baxdı. Amma deyəsən, bu dəqiqə o uşaq Dilbərdən savayı bir kəsin də yadına düşmürdü.

Dilbərin oğlu Səlim bayaqdan bəri otağın bir küncündə oturub dərslərini hazırlayırdı. Dayısıyla, babası içəri keçəndə başını da qaldırmadı. Amma hərdən-hərdən gözünü kitabdan çəkib altdan-altdan dayısına baxırdı.

Surxay indicə yerindən qalxıb ona yaxınlaşacaqdı: - Yekə oğlan olmusan – deyəcəkdi, - sonra əyilib onun üzündən öpəndə gözü stolun üstə lap açıqda qalan gündəliyə sataşacaqdı. O gündəliyi götürüb vərəqləyəndə dayısının üzü güləcəkdi: - bax belə oxumaq lazımdı – deyəcəkdi, sonra bacısı oğlunun bu qiymətli başını bir də qucaqlayanda Səlim Surxayın qoltuğu altından səhər-axşam anasından, atasından eşitdiyi sözü deyəcəkdi:

- Dayıma çəkmişəm.

Amma Surxay deyəsən əməlli-başlı mürgüləmişdi. Səlim astaca dəftər-kitabını yığışdırdı, keçib Surxayın yanında oturdu. Surxay gözlərini açıb:

- Lap yekə kişi olmusan, - dedi, amma bu yekə kişiyə gözünün qırağıyla da baxmadı, yenə saatına baxdı.

Səlim dinməzcə ayağa qalxıb stolun üstünü eşələdi, təzədən qayıdıb əlindəki gündəliyi Surxaya elə uzatdı ki, onun gündəliyi bu uşaqdan alıb vərəqləməkdən başqa çarəsi qalmadı.

Səlim gözünü Surxaydan çəkmirdi. Elə bil dayısıyla üz-üzə dayandığına hələ də inanmırdı. Yəqin sabah dərsdə uşaqları da inandıra bilməyəcəkdi. Amma Səlim yəqin bilirdi ki, dayısının baxdığı o gündəlikdə nə qədər beş vardısa hamısı bu gündən ötrüydü. Çünki hər dəfə o beşləri alanda ən əvvəl Surxay müəllim gözünün qabağına gələrdi. Beşlər çoxaldıqca Səlimin gözləri də iştahlanardı, Surxay

müəllimlə əl-ələ tutub o böyük şəhərin küçələrini gəzərdi. İndi dayısı o gündəliyi vərəqləyəndə Səlimin gözləri Surxay müəllimin şəhərdəki yaraşıqlı ev-eşiyinə baxırdı. Surxay qəflətən elə bil Səlimin o işıqlı gözlərindən diksinib başını qaldırdı və qabağında dayanan bu uşağa baxanda hiss elədi ki, gəlib bu evə düşəndən bəri birtəhər canını onun əlindən qurtarmaq istəyir.

...Bir vaxtlar Surxay da eynən belə bir gündəliyin yiyəsiydi. Səhər-axşam gözünün yağını kitablara yedirərdi. Oxuduğu o qalın-qalın kitablardan nə istədiyi əvvəl-əvvəl Surxaya o qədər də məlum deyildi. İllər ötdükcə Surxay hər şeyi başa düşdü. Dərs qurtarandan sonra tay-tuşları qızları ötürəndə Surxay hər dəfə bir qıraqda büzüşüb dayanardı, yazıq-yazıq onların ardınca baxardı. Ürəyindən keçərdi ki, gedib o qızlardan heç olmasa ən kifirinin yanıyla addımlasın, oğlanlardan heç olmasa ən mağmınıyla dostluq eləsin. Amma o dəstəyə qoşulmağa üzü gəlməzdi. Çünki Allahdan aldığı öz eybəcər görkəmindən özünün də zəhləsi gedərdi. Tez evə qayıtmaq istərdi, məcbur olub bir neçə saatlığa adam içinə çıxardığı üzünü sabahacan gizləməyə tələsirdi. Qapıdan içəri keçən kimi birbaş öz otağına çəkilib kitabları qabağına tökərdi. O kitabları oxuyanda Surxay sırayla düzülən hərflərin, sözlərin içində gizlənib özünü büsbütün unudardı, o böyük, yad şəhərlərin gözəl-gözəl qızlarını görərdi və hardasa lap uzaqda darıxa-darıxa dayanıb bu şəhərə qaynayıb-qarışmaq istəyən bir özgə Surxayı görərdi. Yəqin elə ona görə də günlərin bir günü oxumağa yollananda Surxay elə bil o yad şəhəri yüz illər idi ki, tanıyırdı.

Sonra Surxay daha çöldə-bayırda, məclislərdə üzünü gizləməyə macal tapmadı. «Surxay müəllim, orda durma, burda dur. Surxay müəllim, orda oturma, burda otur».
Bir vaxtlar yuxusuna gətirməyə belə ürək eləmədiyi gözəl-gözəl xanımlar da indi Surxayla kəlmə kəsəndə onun ağlından, qanacağından elə heyranlıqla utanıb-sıxılardılar ki, elə bil mələklə üz-üzə gələrdilər. Amma üzündən asılan o mələyin əksini nə zülmlə özündə gəzdirdiyini təkcə Surxay bilirdi. Yəni, tək bircə gün Surxay küçəyə çıxanda addımından tutmuş, baxmağına qədər bütün hərəkətlərini ölçüb-biçməsəydi, elə həmin gün hamının üzü ondan dönəcəkdi. Çünki dostların məclisində, o gözəl xanımların isti qucağında belə Surxayın öz əsl sifəti bir dəqiqə də yadından çıxmırdı.

Amma indi qabağında dayanan Səlim adlı bu uşağa Allah hər şeyi hələ anasının bətnində vermişdi. Surxayın ömrü boyu sürünə-sürünə, cırmaqlaya-cırmaqlaya açdığı qapılar bu uşağın o gözəl üzünə indidən taybatay açığıdı.

Surxay qəflətən özündə bu uşağa qarşı nəsə bir nifrət hiss elədi, üzünü yana çevirəndə gözü Güllü arvada sataşdı.

Güllü arvad divanda yerini rahatlayıb Surxaya elə sevə-sevə baxırdı ki, elə bil

birinci dəfə üzünü gördüyü bu kişi öz doğma balasıydı. Bəlkə də o qadın bu dağınıq otaqda Surxayı öz oğluyla dəyişik salmışdı.

Surxay yenə gözlərini yumdu. Amma yuxusu qaçmışdı. Təzədən gözlərini açıb bu otağın adamlarına baxmağa da həvəsi yoxudu. Yumulu gözləriylə birtəhər özünü məşğul eləməkdən ötrü bircə çarəsi olub-keçənləri yada salmaq idi.

Görəsən, bu otağın adamlarından kim daha diridi? Yəni, atasıyla bacısından hansının keçmişi Surxaya yuxu gətirə bilərdi? Qatara minib-gedənəcən mövcud olacağı vaxtın boşluğunu nəyləsə doldurmaq lazım idi.

Atası haqqında fikirləşməyə halı yoxudu. Bu gün səhərdən-axşamacan yuxulu milçək təki gözünün qabağında o yan bu yana fırlana-fırlana harda gəldi büzüşüb canını dincəltmək istəyən o kişidən xirtdəyəcən doymuşdu.

Bəlkə Dilbər dadına çatacaqdı? Amma yox, Surxay hansısa uzaq kəndlərin birində yaşayan bacısını kefinin kök vaxtlarında yadına salardı.

Doğrudan da hərdən-hərdən Surxayın belə vaxtları olardı. Səbəbsiz-filansız, elə oturduğu ya durduğu yerdəcə qəflətən özündə nəsə bir yüngüllük hiss eləyərdi. Elə bil təpədən-dırnağacan yaşamaqdan həzz alardı. Amma sonra qarış-qarış qalxıb bədəninin çəkisini sümürən bu yad hissdən diksinib qorxardı. Elə bil o yad ruhu bədənindən çıxıb uçacaqdı. Heç yanda özünə söykənəcək tapmayıb onu da özüylə aparacaqdı. Hara?..

Onda Surxay birtəhər özünü saxlamaq, sakitləşdirmək istərdi. Hər dəfə də Surxayı bu şirin əzabdan qurtaran bacısı olardı. Yəni, Surxayın kefini alt-üst eləməkdən ötrü o qadının bircə adı belə bəs idi.

Niyə?

Surxay bu sualın cavabını bilmirdi.

Sağlığında Pərinisə arvad bir kərə də Surxaya acıqlanmadı, xətrinə dəymədi. Elə bil öz doğmaca balası deyildi, bir yad uşağıdı, hardansa ona pənah gətirmişdi. Amma deyəsən, Pərinisə arvad elə o vaxtdan bu balaca oğlunda gələcəyin ən böyük əzabkeşini görmüşdü. Doğub yarıda bilmədiyi bu uşağın ömrü boyu çəkəcəyi bəlaları qabaqcadan duymağı o arvadı bu dünyadan tez apardı. Vaxt vardı ki, gecələr hamıdan xəbərsiz azı üç-dörd kərə çarpayıdan qalxıb Surxaya baş çəkərdi, onun yuxusunu qoruyardı. Səhərlər Surxayı dərsə ötürüb günortayacan ürəyi əsə-əsə yolunu gözlərdi. Çünki Surxay günlərin bir günü dərsdən qayıtmaya da bilərdi.

Surxay böyüyüb boya-başa çatanacan Pərinisə arvad qorxu-hürkü içində yaşadı. Oğlunun fikri öz yaşını da ona birdəfəlik yadırğatdı. Bəlkə övladının dərdindən indi qəbirdə də canını dinclik tapmamışdı. Amma özündən olsaydı yəqin ki, Pərinisə arvad belə tez yorulmazdı. İşləri yarımçıq qaldı, bu dünyadan narahat köçdü. Əslində, Pərinisə arvad öz əcəlinə hələ sağlığında hazırlıq görmüşdü. Çünki, Surxayı başlı-başına qoymaq olmazdı. Pərinisə arvadı bu evdə Dilbər əvəz eləməliydi.

Görəsən, evin sonbeşiyi olan bu fağır qız Pərinisə arvadın günahını yuya biləcəkdimi? Amma borcuydu. Çünki o günahdan Dilbərin də payına düşürdü. Düz doqquz ay, doqquz gün, doqquz gecə o günah hələ onun bətnində yaşayan Dilbərin yolunu gözləmişdi.

Surxay bələklənib beşikdə yatan bu körpə bacısına saatlarla baxmaqdan doymazdı. Gözləriylə hələ dili söz tutmayan bacısının qapqara saçlarını danışdırardı. Pərinisə arvad oğlunu qucaqlayıb bərk-bərk ürəyinin başına sıxardı: - Nədi, bacını belə çox istəyirsən? – deyərdi. Amma Surxay təkcə o ürəyin döyüntüsünü eşidərdi. O səs hələ də Surxayın qulağındaydı.

...Keç günahımdan. Sən dünyaya gələndə də qulağının aldığı ilk söz bu oldu. Yanımızda heç kəs yoxudu. İkimizdik. Rəhmətlik nənən də səni lüt-üryan o dünyadan alıb yanıma uzadan kimi çıxıb getdi. Ancaq sən onun da günahından keç. Vallah yazıq arvadın təqsiri yoxudu. Oğlundan qorxurdu, sənin atandan, belindən gəldiyin o kişidən qorxurdu. İçimizdə o kişidən qorxmayan təkcə səndin. Çünki hələ azad deyildin, elə bir bağlı yerdəydin ki, ora o kişinin nə əli çatırdı, nə səsi yetirdi. Amma yox, səsi yetirdi. Bu evdə nə olurdusa, hamısını eşidirdin. Balaca yumruqlarınla içimi-içalatımı döyəcləyirdin. Bəlkə də mənə qahmar çıxmaq istəyirdin, məni o kişinin əlindən qurtarmaq istəyirdin. Nənən birtəhər oğlunu sakitləşdirib aparardı, ancaq sən kirimək bilməzdin, vurnuxardın, çabalayardın, canımı dağıdardın. Ufuldayardım, zarıyardım, deyərdim bəlkə eşidib mənə yazığın gəldi. Nənən qayıdıb üstümü kəsdirərdi: - Səsini niyə başına götürmüsən? -deyərdi. Əslində o arvad haqlıydı. Çünki oğlu heç vaxt mənə əl qaldırmazdı. Məni ağrıdan, ağladan təkcə səndin. İçimi gömgöy eləmişdin. Soyunub atanın yanına girməyə də məndə üz qoymamışdın. Ürəyimin altında sənin ürəyin döyündüyü gündən doğulduğun günəcən atanla bir yastığa baş qoymadım.

Deyəsən, səni çətinə saldım. İndi hər şeyi əvvəlcədən olduğu kimi danışaram. Bir az səbr elə, qoy ağrım azalsın. Deyəsən, ağrımın səsini sən də eşidirsən. Ürəyimin ağrısıdı, elə döyünür ki, qəbirdə də mənə rahatlıq vermir.

Sən ölü doğulmalıydın. O kişinin bir sözü iki ola bilməzdi. Əslində, deməyə də bir sözümüz yoxudu. Nənən də, mən də o kişinin qabağında gözü kölgəliydik. Çünki

sənin nənən oğlunun ayağını çöldən yığmaqdan ötrü məni zorla ona arvad eləmişdi. Atan məni də yoldan çıxarmışdı. Əslində, o kişidən ötrü kəndin bütün qızları yoldan çıxmağa hazırıdı. Zəhmiylə dağ yaran bir nəhəng kişiydi. Hər dəfə çiynimizdə səhəng bulaqdan qayıdanda qabağımızı kəsib-dayanardı. Nə bir kəlmə dinib-danışardı, nə də bir qurtum su istərdi. Amma düzünü deyim ki, bulağa hamımız təkcə o kişiylə rastlaşmaq üçün yollanardıq. Hələ dünyanın işlərindən xəbəri olmayan sütül qızlardıq. Gecələr yatmaq istəyəndə də yuxuya getməkdən ötrü bir şey fikirləşə bilməzdik. Amma o kişinin hər səhər bizi ayaqdan-başacan süzən gözləri yuxumuza o qədər şirinlik gətirmişdi ki, düz səhərəcən yerimizin içində qıvrıla-qıvrıla qalardıq. Bir səhər ayıldım ki, özgə bir evdə, yad bir çarpayıda o kişiylə qucaq-qucağa yatmışam. Qışqırıb çığırmaq istədim, çünki mən, mən deyildim. Elə bil özüm yatıb özgəni oyatmışdım. Amma sənin atan həmin gecədən səmimi də qıfılladı. Yetişib-dəymiş bir yad bədən oldum. Elə bil dünyaya təzədən gəlmişdim, anam da, atam da o kişiydi. Amma sən doğulanacan atan ayağını bulaq başından kəsmədi.

Həmin gün qapının arxasında gəzişən atanın addımlarından savayı bir hənirti yoxudu. Gərək insafla deyəm ki, o səs ağrım tutandan bizləydi. Sənin atan o gün evdən çölə çıxmadı. Sonra bütün ömrü boyu mənə nifrət eləsə də, deyəsən həmin gün sənin atan öz taleyilə barışmışdı. Bizi sən birləşdirmişdin. Amma səsin çıxmırdı. Əvvəl elə bildim ölü doğulmusan. Sən tərəfə baxmağa ürək eləmirdim. İçimi yeyə-yeyə qalmışdım. Barı insaf eləyib bir ağız ağlayaydın, mənə ürək-dirək verəydin. Qapının dalından gələn hənirti də kəsilmişdi. Deyəsən, atan da kirimişcə dayanıb sənin ağlamağını gözləyirdi. Amma sən ağlamadın. Çünki binasını qoyduğun ömründə birinci dəfəydi ki, biz səndən asılıydıq. Öz əvəzimə də, öz əvəzinə də bətnimdə səni çox ağlatmışdım, bir cana yerləşən iki dərdi tək sənə daşıtdırmışdım. Keç günahımdan, dedim, üzümü çevirəndə sənin gözlərinlə rastlaşdım. Dipdiri açılmış bir cüt bomboş, işıqsız göz idi. Görürdün, amma baxmırdın. Bilirəm, bütün ömrün boyu çəkəcəyin əzabların qabağında indidən özünü yormağa qıymırdın.

Sonra atan da içəri girdi. Mən o kişinin duruşunu ömrüm boyu yadımdan çıxara bilmədim. Sənin gözlərinin qabağında o kişi də tab gətirə bilmədi. Qəflətən elə büzüşüb cılızlaşdı ki, səni atıb öz cəlladımın köməyinə qaçmaq istədim, ona qahmar çıxmaq istədim. Yenə deyirəm, keç günahımdan, amma həmin gün sən o bir qarış boyunla bizim ikimizdən də güclüydün.

Sonra atan başını qaldırıb yazıq-yazıq gülümsündü: - Göbəyi düşüb, - dedi. Sən göbəyini hələ bətnimdə salmışdın. Bunu təkcə mən bilirdim. O kişinin hədələri gəlib qulağına çatanda qorxmuşdun, ölü doğulacağından qorxmuşdun. Amma həmin gün sən atanla ananın ilkbeşiyi oldun, dil tapıb danışa bilmədiyim o kişiylə məni biryolluq barışdırdın. İndi hər ay şəhərdən gəlib satmaq istədiyin bu evin

özülü oldun. Deyəsən, birinci kərə gözünü açıb gördüyün o uçuq-sökük daxmamız sənin də yadına gəlir. Atan səni mənimlə tək qoyub getmişdi. Ürəyimdə fikirləşirdim ki, yəqin yenə hardasa bir qıraqda dayanıb bulaqdan qayıdan qızlara tamaşa eləyir. Amma qayıdıb odun şələsini çiynindən qoyanda, sobanı qalayıb pəncərənin sınıq-salxaq şüşələrinə pambıq tıxayanda, bizə sarı baxıb yazıq-yazıq, -balama soyuq olar, deyəndə başa düşdüm ki, indi belini büküb qabağımda dayanan bu adamda dünənəcən gecələr qolları arasında sümüklərim xırçıldayan o hirsli-hikkəli kişidən əsər-əlamət də qalmayıb. Sənin atan həmin gündən ayağını bulaqdan biryolluq kəsdi. Sonra sən böyüməyə başladın. Sən böyüdükcə daxmamız da əməlli-başlı ev-eşik cildinə düşürdü. İndi ucaboylu, enlikürəkli o kişi bu vaxtacan hara, nəyə xərcləmək lazım olduğunu bilmədiyi sel kimi aşıb-daşan gücünü təkcə bu evə sərf eləmişdi. İməkləyəndə dizlərin zığa-palçığa batmasın deyə evimizin qabağındakı şüşəbəndə, saatlarla pəncərədən baxdığın, gün-gündən yaşıllaşan həyətimizə görə təkcə sənə borcluydum. Sənin hesabına anan da gün-gündən dirçəlib ətə-qana gəlirdi. Çünki daha o kişinin dilindən bircə kəlmə də ağır söz eşitməzdim. Gecələr o kişiylə qol-boyun olub uzananda düz səhərəcən ürəyimdə sənə dua eləyərdim. Elə bil səni doğub özümü də səninlə dünyaya təzədən gətirmişdim. İndi kəndin bir qızına gözünün qırağıyla da baxmayan o kişinin canında qalan o böyük məhəbbətə tək yiyəlik eləyirdim. Düz səhərəcən güclü, qabarlı əlləriylə tumarlayıb-sığalladığı bədənim elə bil təzədən yetişirdi, təzədən dəyirdi. O gecələrdə sən həmişə böyrümdə olardın, hər şeydən xəbərsiz şirin-şirin yatardın. Boynumu-boğazımı tərlədən isti nəfəsindən boğulardım, dönüb səni qucaqlamaq istərdim, o arıq əllərini, əyri ayaqlarını, dənə-dənə pırtlayıb çıxmış qabırğalı bədənini, hələ bundan sonra ömrün boyu gəlib səni tapacaq dərdləri yerbəyer eləməkdən ötrü bircə barmaq da salamat yer qalmayan, elə indidən qırış içində itib-batmış sir-sifətini bağrıma basıb öpmək istəyirdim. Çünki bu böyüklükdə xoşbəxtliyə hazır deyildim: nə gücüm çatırdı, nə nəfəsim. Yəqin iniltilərim, sızıltılarım yuxularında sənin də qulağına çatırdı. Anan xoşbəxtlikdən boğulurdu oğlum, keç günahımdan, vallah-billah boğulurdu...

Sən ayaq açıb yeridiyin gün nənən öldü. Əslində yazıq arvad çoxdan, sən dünyaya gələn gündən xırda-xırda ölməklə məşğul idi. Elə ki, evimiz bir gün gördü, əvvəlcə başladı ürəyindən şikayətlənməyə, sonra da yorğan-döşəyə yıxılıb bir də qalxmadı. Deyəsən, sənin nənəni bu vaxtacan diri saxlayan oğlunun dərdiydi. Yıxılanı tuta-tuta, dağılanı yığa-yığa hamımıza dayaq olub özündən ötrü ölümü də unutmuşdu. İndi də bu evdə hər şey öz yoluna düşəndən sonra, görünür, yazıq arvad özünə gəlib bu boyda rahatçılığan dözə bilmədi.

Sonra bacın dünyaya gəldi.

Burdan o yana nə olubsa, özün öz gözünün şahidisən.

İndi ananı rahat burax.

Aç gözlərini.

Daha sənin başını qata bilmirəm.

Ürəyim yenə ağrımağa başladı.

Elə sancır ki, az qalır, təzədən diriləm.

Eşidirsən necə döyünür?

Deyəsən, eşitmirsən?

Bir də ki, necə eşidəsən? İndi mən çox uzaqdayam, bir dünya o yanda.

Surxay qəflətən diksinib gözlərini açdı. Bayaqdan bəri çəkic təki beynini döyən çaqqıltı səsi kəsilmişdi. Ağır-ağır qolunu qaldırıb saata baxdı. VAXT dayanmışdı.

Dilbər məcməyidə gətirdiyi çayı stolun üstünə qoydu. Süfrədə limondan tutmuş zoğal mürəbbəsinəcən hər nə desən var idi. Hər şeyi yerli-yerində düzülən bu yaraşıqlı süfrə divarları çatdaq-çatdaq olmuş otağa azca da uyuşmurdu. Görünür, Dilbər bu neçə vaxtı Surxayın yolunu gözləyə-gözləyə qabaqcadan işini ehtiyatlı tutub nəyə də gücü çatmasa heç olmasa açacağı süfrəni qardaşının adına yaraşdırmaq istəmişdi.
Dilbər bir doyunca süfrəyə baxandan sonra dönüb getmək istəyəndə Surxayın xırıltılı səsini eşitdi:

- Bu nə vaxtın dəm-dəsgahıdı?

Əslində, Surxay bomboş gözlərini harasa zilləyib oturduğu stula elə pərçimlənmişdi ki, tərpənənə oxşamırdı. Bunu Dilbər də hiss elədi, dinməzcə mətbəxə keçdi.

Daha oturub qala bilmirdi. Surxay bir də qolunu qaldırdı, amma bu dəfə saatına baxmadı, şişib zol-zol dayanmış damarlarına baxdı. Bütün bədəni gərilmişdi, elə bil illər uzunu damarlarıyla axan nə qədər qan vardırsa hamısı bir yerə toplanıb laxtalanmışdı, bir damla qan da hərəkətdə deyildi, axmırdı. Lap barmaqlarınacan göyərmişdi. Surxayı bir qəribə üşütmə tutdu.

Zəhrimar azar da bu vurhavurda gəlib onu tapmağa vaxt seçdi. Surxay ha fikirləşsə də özünü qızışdırmaqdan ötrü ağlına bir şey gəlmirdi. Elə bil beyninin tərpənişləri də laxtalanmışdı.

Sonra birtəhər bədəninə güc verib ayağa qalxanda hardansa qulağına bir doğma xırçıltı səsi gəldi. Görünür, sümüklərinəcən keyimişdi.

Surxay bacısının ardınca ağır-ağır mətbəxə keçdi.

Dilbər Surxayın onunla qabaq-qənşər dayandığını görəndə əvvəl karıxan kimi oldu, sonra bir balaca sıxıla-sıxıla qardaşına baxdı. Yəqin Surxay hal-əhval tutmağa gəlmişdi. O qədər adamın içində yaxşı deyil, bacı-qardaş təklikdə dərdləşəcəkdilər.

Surxay:

- Bacı, nə təhər dolanırsan, - deyəcəkdi, - sağlıq-salamaqlıqdırmı?

Bir azdan eyni şeyi Dilbər qardaşından soruşacaqdı. Sonra nə vaxtsa olduğu kimi yenə bir qırağa çəkiləcəkdilər. Deyib-danışmağa o qədər söz vardı ki...

- Əgər evinizdə varsa bir stəkan araq süz.

Surxayın səsi elə bil quyunun dibindən gəlirdi. Amma yox, qardaşının səsiydi. Dilbər bu səsi min səsin içindən seçərdi. Çünki ömrünün çoxu bu səsdən keçmişdi.

- Qardaşının bir sözünü iki eləsən gözünü çıcararam. Lap səni təpiyi altına salıb şil-küt eləsə də ağlama, üz-gözünü turşutma, qalx ayağa, ətəyinin tozunu çırp, sonra qardaşının boynunu qucaqla, üzündən öp...

Dilbər qəflətən ayılıb:

- Niyə yoxdu, Allaha şükür, hər şeyimiz var, - deyib, döndü, tələsik gedib siyirməni açdı, kişisinin bədənini ovmaqdan ötrü orda saxladığı yarım şüşə arağı çıxarıb stolun üstünə qoydu.

- Bəlkə yeməyə bir şey hazırlayım?

Surxay tərs-tərs bacısına baxıb:

- Elə yavanca içəcəm, - dedi, - stəkana süzdüyü arağı birnəfəsə başına çəkib elə o saatca damarlarının yumşaldığını hiss elədi. Qan axıb canını isidəndə Surxayın bir ürəkdən «oxxay» eləməyi gəldi. Amma bir küncə qısılıb donunun ətəyini didişdirə-didişdirə qardaşını bu halda görməkdən özünü zorla saxlayan bacısına:

- Bu şüşəni gizlət, deyib. - Dilbərin yanında içinin ləzzətini çölə çıxarmaqdan vaz keçdi.
Surxay yenə keçib öz yerində oturmuşdu. Handan-hana Əmrah kişi arxaya qanrılıb oğluna baxdı. Deyəsən, Surxay bir balaca özünə gəlmişdi. Əmrah kişi nəsə ürəklənən kimi oldu:

- İndicə bacı-qardaş özünüzü xəlvətə verib nə pıçıldaşırdız, - dedi, amma səsi elə quru çıxdı ki, elə bil bu sözləri demirdi, əzbərləyirdi.

Surxay cavab vermədi, qabağındakı stəkanı kənara itələyib üzünü mətbəxə tutdu, bacısını çağırıb:

- Gəl bu çayı təzələ, - dedi.

Əmrah kişi onun ardınca sevinə-sevinə:

- Qardaşının çayını bir az tünd elə – dedi.

Amma Surxay bacısının süzüb gətirdiyi o pürrəngi çaydan da bircə qurtum dilinə vurmadı.

Əmrah kişi hiss elədi ki, oğlu tələsir. Amma əslində özü getmək istəyirdi. Çünki gəlib bu evə düşəndən ürəyinə dammışdı ki, arvadı bu gecə yenə yuxusuna girəcək. Səhər o başdan qəbiristanlığa yollanmaqdan ötrü indidən gedib azca da olsa dincini alardı.
Qəflətən Əmrah kişi hiss elədi ki, bayaqdan bu iki balasına nəsə demək istəyir. Deyəsən, elə Surxayı birtəhər dilə tuta-tuta bacısının evinə gətirməyi də o sözü deməkdən ötrüydü. Qardaşla bacını görüşdürüb özü bir qıraqda dayanacaqdı, o sözü deyəndən sonra həm də nəsə soruşacaqdı. Darvazadan içəri keçənəcən hər şey yadındaydı. Hələ ömründə özünü bu qədər yüngül hiss eləməmişdi. Beyni elə duruydu ki, elə bil oğluyla qızına nə qədər sözü vardısa hamısı indicə deyəcəyi sözlə axıb gedəcəkdi. Onda Əmrah diksinib sözünü sonraya saxlamışdı.

Amma indi bu otağın sıxılmış havasındanmı, ya bayaqdan yeznəsiylə danışa-danışa bir kəlməsi də fikrində qalmayan söhbətdənmi, həmin o söz də beynində boğulmuşdu. Amma lap səhərəcən oturub qalmalı olsaydı belə, o sözdən azad olunmayınca yerindən tərpənən deyildi.

Əmrah lap astadan:

- Qızım, gəl bu çayı da təzələ, - dedi.

## CANAVAR

*(Hekayə)*

-Tez olun, tutun, qoymuyun, qaçdı...

- Qaçdı axı.

- Ver bura tüfəngi.

- Ə ayağını tuşla, bəlkə başından dəydi.

Dalbadal açılan güllələr yan keçdi. Canavar onu qovan kənd camaatından canını qurtarıb qaçdı..

- Yox balam, bizim yemimiz deyilmiş.

Gördüz nə təhər qaçdı da. Vallah, bu köpəyoğlunun heyvanı bizdən də qurddu.

Camaat yavaş-yavaş dağılışırdı. Yaqub kişi yorğun-arğın addımlarla düz həyətinin darvazasınacan bir kəslə kəlmə kəsmədən getdi, darvazanı döydü.

Axşamçağıydı. Kəndin itləri hürüşürdü. Yaqub kişi darvazanın ağzındaca keyiyib qalmışdı. Ona elə gəlirdi ki, itlər hürdükcə keyi açılır.

İçəridən Məsmənin səsi gəldi:

- Kimdi orda, darvaza açıqdı.

Yaqub kişi kirimişcə içəri keçdi.

- Nə oldu, tutduz canavarı?

- Yox, əşi, çıxdı əlimizdən.

- Yəni o qədər kişi bir canavarla da bacarammadız?

- Ay arvad, it kimi yorulmuşam, yazığın gəlsin. Sənin çənəvin altına girməyə halım yoxdu. Bir stəkan çay süz, görüm axırı necə olur.

Yaqub kişi Məsmə arvadla qırx ildi ki, ömür sürürdü

Məsmə çox üzüyola arvaddı, bu üzüyolalıq onda lap elə birinci toy gecəsindən qalmışdı.

Həmin gecə Məsmə yatağa girəndə Yaqubun zəhmini görüb qanmışdı ki, kişi əlinə düşüb.

Yəni, bu adamla Məsmə laqqırtı vurmayacaqdı, yanında nazlanmayacaqdı, bu kişinin zəhmi onu ta ömrünün axırınacan öz ovcunda sıxıb saxlayacaqdı.

Məsmə çayı ərinin qabağına qoyub, oğrun-oğrun ona baxdı.

Yaqub qocalmışdı, lap elə bil zəhminəcən qocalıb əldən düşmüşdü.

Yaqubun qocaldığını hamı görürdü, zəhminin qocalmağındansa təkcə Məsmənin xəbəri vardı.

Yaqubun zəhmi bu illər boyu Məsmənin qanına qarışıb damarları uzunu axmışdı. Odur ki, Yaqub Məsməyə çəpəki baxanda yazığın damarları tutulardı, bədəni keyiyərdi.

İndi Məsmənin gözündə təkçə Yaqub qalmışdı, zəhmi qocalıb ölmüşdü.

Ancaq Yaqubun öz zəhmindən yetim qaldığını Məsmədən savayı heç kəs, bəlkə özü də bilmirdi.

Həmin axşam kənd camaatının canavardan savayı söz-söhbəti yoxudu.

Elə bil ki, o canavar gəlib kəndə çıxmasaydı bu gecə heç kəs dinib-danışmayacaqdı.

Yaqub kişi oturmuşdu, amma nədənsə yaman fikirliydi, ağzındakı qənddən sümürə-sümürə qabağındakı çayı içdikcə elə bil canı yenə keyiyirdi.

Yaqub kişi yalandan da olsa hirslənib-acıqlanıb o keyliyi canından çıxarmaq istəyirdi. Ancaq bacarmırdı, heç yalandan hirslənməyə də heyi yoxdu.

- A kişi eşitdin də, yetim Tahir vardı ha, gedib Bakıda doxturluğa girib. Sağ olsun belə uşağı, atasız-anasız, bir yerdən köməyi olmaya-olmaya. Başqaları bir ətək...

Yaqub kişi Məsməni həm eşidirdi, həm eşitmirdi. Gözünün qabağında bir Tahiriydi, bir də özü.

Tahir atadan-anadan yetim olsa da, günlərin bir günü toy eləyib evlənəcəkdi.

Dünyaya körpələr gətirib öz əliylə onlara beşik asacaqdı.

Bu yaşında baladan yetim olmaqsa böyük dərd imiş.

Axı Yaqubun günahı nəydi ki, baxtına sonsuz arvad düşmüşdü.

O vaxt əgər bir başqasını alsaydı, indi oğlanlarına elçiliyə gedib, qızlarına elçi gözləyirdi.

Elçilərdən biri də bəlkə elə bu yetim Tahir olacaqdı. Yetim Tahir, həkim Tahir!..

Yaqub kişi qəfil ayağa durub qışqırmaq istədi:

“Ay arvad, oğlan demirəm, bir qız nədi ki, onu da mənə çox gördün?!.”

Ancaq içiylə üzüyuxarı qalxan o qışqırığı boğazında boğdu. Bir də ki yazıq Məsmə neynəsin?

Hansı arvad istəməz ki, övlad-uşağı ola?

- A kişi nə dedinsə, eşitmədim. Bir də bərk de.

- Deyirəm gəl bu çayı təzələ, soyuyub.

Yaqubun hirsi də bu çay kimi soyumuşdu.

Çünki Məsməyə yazığı gəldiyi tək özünə də yazığı gəlirdi.

Bu torpağın üstə neçə il təpik döyüb bir düz-əməlli kef görməmişdi.

Məsmədən savayı bir arvada gözünün qırağıyla da baxmamışdı.

Bir para başqa kişilər təki xirtdəyəcən içib leşlənməmişdi.

İstidə-soyuqda təri dabanından axa-axa özünə ev-eşik, həyət-baca qurmuşdu.

Elə bilmişdi ki, günlərin bir günü oğlu gəlib bu bağ-bağata yiyə duracaq:

- Allah canıvı sağ eləsin, ay ata, - deyəcək, - qurtardın məni bu dünyanın əziyyətindən...

- A kişi, bəlkə heç o gələn canavar deyilmiş, it-zadıymış. O qədər yurdsuz-yuvasız avara itlər var ki.

Yoxsa nə qədər səfeh canavar olsa, yenə göz görə-görə gəlib kəndə girməz. Mən bu yaşımacan belə şey görməmişəm.

Məsmə arvad danışa-danışa düyü arıtdayırdı.

Ona baxdıqca nədənsə Yaquba elə gəlirdi ki, yanında oturan arvadı deyil, canavardı.

Yaqubun öz canavarı, baxtına düşən canavar. Yaqubun bığıburma oğlanlarını, uzunsaç qızlarını bətnində yeyib, udub, əridib, heç eləyən canavar.

- Gör yeməyə nəyin var, ay arvad? Bax gör şüşədə araq qalıbsa, onu da gətir, bir yüz atım.

- Araq qalar qalmağına. Sən içmədin, kimimiz var axı əlini vura. Təki həmişə belə olsun, a kişi, bu gün kefin deyəsən kökdü.

- Söz dedin də, sənin kimi arvadı olanın kefi necə olar axı.

- Az təriflə, a kişi, gözə gələrəm.

- Rəhmətliyin qızı, innən belə məndən savayı sənə kim baxacaq ki, kimin də gözünə gələsən...

Darvaza döyülürdü. Özü də elə döyülürdü ki, heç ruhu da incimirdi.

Taqqıltıdan Yaqub kişi hiss elədi ki, darvazanı döyən hər kimdisə bu dəqiqə sakitcə dayanıb ləzzət ala-ala itlərin hürüşməsinə qulaq asır.

Yaqubun bir yandan o ləzzəti çəkən adama paxıllığı tuturdu, bir yandan da darvazanı gedib açmaq istəyirdi, ancaq tərpənməyə heyi yoxdu.

Nə yaxşı ki, bu evdə Məsmə arvad varıdı. O səs də Məsmə arvadın səsiydi.

- Darvazanı bərk itələ, açıqdı.

Darvaza cırıldaya-cırıldaya açıldıqca, ən əvvəl içəri girən adamın daz başı, sonra bu istidə çiyninə atdığı pencəyi, ən axırdasa barmaqlarında fırlatdığı təsbehi göründü.

Qonşu Səfiydi.

- Səfi qardaş, xoş gəlmisən.

Xoş günüvüzə gəlmişəm. Bəs Yaqub hanı?

Məsmə elə ağzını açmaq istəyirdi ki, Yaqubun səsi gəldi.

- Səfi, axşamın xeyir.

- Axşamın xeyir, axşamın xeyir.

- Qonşu xeyir ola bu şər vaxtı?

- A kişi, xeyir olmamış nə olacaq. Nəsə darıxırdım, dedim gəlim sənnən bir oturub dərdləşək.

- Lap əcəb eləyib gəlmisən. Vallah, elə mən də indicə səni arzulayırdım.

Yaqubla Səfi bir kənddə, bir yerdə böyümüşdü.

Kolxozun bağından şaftalını səbət-səbət oğurlayıb rayon bazarına da bir yerdə çəkmişdilər.

Bu şaftalının onlara xeyri-ziyanı o olmuşdu ki, Yaqubun cibi indiyəcən görmədiyi pullar görmüşdü, Səfinin də ki, kürəyi indiyəcən yemədiyi kötəklər yemişdi. Səfinin döyülməyinin səbəbi elə öz maymaqlığıydı. hər dəfə bağın qarovulçusu lap uzaqdan görünən kimi Yaqub ağacdan tullanardı, dabanına tüpürüb aradan çıxardı.

Ancaq Səfi ağacdan atılmağa ürək eləməzdi, kötəyi həm Yaqubun, həm oz yerinə yeyərdi.

Yaqubun diribaşlığına Səfinin həmişə paxıllığı tutmuşdu.

Elə Məsmənin dalınca da ikisi sürünmüşdü.

Ancaq Yaqub Səfini adam saymırdı, bilirdi ki, Məsmə özünün olacaq.

Məsmə də Məsməydi ha...

Baxan deyərdi, gün altda qarala-qarala yun əyirən kənd qızlarının bu Məsməyə azca da qarışacağı-zadı yoxdu.

Səfi Məsməylə üz-üzə gələndə utanıb-qızarırdı, söz demək istəyəndə dili topuq çalırdı.

Ancaq Yaqub işini bilirdi. Bilirdi ki, bütün qızlar kimi gərək Məsməyə də yağlı dil tökəsən, yolunda heç olmasa bir balaca əziyyət çəkəsən.

Günün istisi başını deşə-deşə hər gün bulağa tərəf gedən cığırın qarşısındakı daşın üstə oturub, eşşəyi də böyründə Məsmənin yolunu gözlərdi.

Məsmə çiynində səhəng su sonası kimi Yaqubun yanından keçəndə, ayağa durub üstündəki toz-torpağı çırpa-çırpa onun ardınca düzələrdi.

Vəfalı eşşəyi də soncuqlaya-soncuqlaya dallarınca gələrdi.

Eşşək də elə bil bu sövdadan duyuq düşmüşdü.

Bilirdi ki, bir azdan belinin xurcun yerinə səhəng bağlayacaqlar.

Ona görə də ehtiyatını qabaqcadan tuturdu ki, sonra eşqinə soncuqlamağ düşməsin.

Beləcə, Məsmə səhəngini eşşəyin belində daşıtdıra-daşıtdıra bir də ayıldı ki, bulaq başında nə Yaqub qalıb, nə eşşəyi.

Ancaq Məsmə çiynindəki o səhənglə birbaş Yaqubun evinə, öz evinə getməliydi.

Bu sudan da Yaquba çay dəmləməli, xörək bişirməliydi.

Səfi Məsmənin dərdindən dəli-divanə olmadı.

Elə Yaqubla Məsmənin toy gününün səhəri, kəndin qara qızlarından birini, Nazlını da Səfi qaçırdı.

Özü də Nazlıda naz deyilən şeydən əsər-əlamət də qoymadı.

Dünyaya səkkiz uşaq gətirib Məsmənin hayfını öz halalca arvadından çıxdı.

Məsmə bozbaşı qaba çəkib qabaqlarına qoydu:

- Bayaq qızı gördüm, dedi, bəs anam naxoşlayıb. Xeyir ola, Səfi qardaş?

- A Məsmə bacı, a Yaqub, vallah bu uşaqlar bizim axırımıza çıxdı. Arvad sözümə baxmadı, gərək elə üçüncüdə kəsərdik. Düz deyiblər ki, azın az dərdi var, çoxun çox.

Canavar kimi daraşıblar canıma. Allah saxlamış, bir deyil, beş deyil. A balam, bilmirsən səkkizindən hansının dalınca gedəsən.

Bakıda oxuyanı hər ay teleqram vurur ki, amandı, pul yolla!

Ancaq gəl bir dəfə teleqram vura, ya məktub yaza, ay ata, ay ana necəsiz? Sağsız? Ölmüsüz? Toba eləməz!

Ya elə Məcidi götür. A kişinin oğlu, evlənmək istəyir.

Özü də deyir ki, özgələrindən nəyim əskiydi, gərək mənə elə toy vurdurasız ki, tay-tuş qabağında başım aşağı olmasın.

# TABUT

*(Hekayə)*

Hər həftə gəlib-getdiyim bu şəhərin hər üzünü görsəm də, belə havasına rast gəlməmişdim.

Bir yandan da maşının yükünü təhvil verə bilməməyimin fikri bu istiyə qarışıb lap cızdağımı çıxarmışdı. İndi bu halda bir maşın qarpızla təzədən kəndə qayıt görüm, necə qayıdırsan.

Əgər bu dəqiqə bir allah bəndəsi qabağımı kəsib, bircə kəlmə vay yazıq desəydi, onun yolunda bu bir maşın qarpızdan elə keçərdim ki, uf da deməzdim.

Amma mənə sarı gözünün qırağıyla da baxan yoxudu. Görünür, hamı mənim günümdəydi, hamının gözlədiyi o allah bəndəsi də elə hamının özüydü.

Yox, dejəsən kimsə mənə sarı gəlir, ayaqlarını görmürəm, amma gözləri düz mənə tuşlanıb. Bəlkə də istiyə dözməyib, indi çatıb yaxamdan yapışacaq: - a kişi, adamlığın olsun, - deyəcək - istidi axı. Görən, nə cavab verim? Desəm, mənə də istidi, düz çıxmaz.

Çünki gərək birinçi yıxılanı qaldırasan. Amma həmin adam elə bir söz dedi ki, özünü bilmirəm, məni istinin əlindən az qala biryolluq qurtardı. Təəccübdən gözlərim kəlləmə çıxdı. Təzədən:

- Eşitmirsən, - dedi, - filan kəndə apararsan?

Yaşadığım kəndi məndən savayı bu şəhərdə tanıyan bir özgə adam olduğunu ağlıma gətirməzdim. Fikirləşdim ki, yəqin bu adda başqa bir kənd də var.

- Hansı kəndi deyirsən - dedim, - filan filanın böyründəmi?

- hə, - dedi - gözünü də qırpmadı, elə bil mənə qulaq asıb eləmirdi, nə desəydim cavabı bu olacaqdı.

Bir zəndlə baxdım ki, bəlkə tanış gələ, amma üz-gözündən nəsə biz tərəfin

adamlarına oxşamaq istəmədi.

Əslində, kəndin adı da dilinə yatmırdı. Bəlkə tanışlardan kimsə onu göndərib ki, məni dolayıb ləzzət alsın? Bu dəfə lap düşmən kimi ona baxıb ancaq indi gördüm ki, qarşımdakı cavan bir oğlandı, özü də yazıq elə bir kökdədi ki, elə bil ya yüz illərdi yuxu üzünə həsrətdi, ya da yüz illərdi yatmaqdan bezar olub.

Deyəsən, bayaqdan bəri özüm də yatmaq istəyirdim. Çünki, bu istinin əlindən qaçıb-gizlənməyə bircə sığınacaq vardısa, o da yuxuydu. Amma bu gədəni görməyincə yıxılıb-yatmaq yuxuma da girməyəcəkdi. Deməli, indi mən də eynən o kökdəyəm. Bu istinin əzabı qəflətən mənə qabağımda dayanan o adamı elə tanıtdı ki, elə bil öz doğmaca qardaşımla rastlaşmışdım.

- Qardaş, köməyi-umacağı olmayan bir yetim oğlanam, - dedim, - maşalla, bir baş da külfətim var, gözü cibimdə, ağzı əlimdə. De görüm nə verərsən?

Bu axırıncı kəlmə niyə ağzımdan çıxdı? Vallah, demək istəmirdim. Amma məndə günah yoxdu, vərdiş eləmişəm.

- Nə qədər istəsən.

Doğrudan da qabağımda dayanan öz doğmaca qardaşımdı. İndi onun başından bir tük əskik olsaydı məni kiritmək olmazdı. Elə bil onu məndən ötrü allah özü yollamışdı.

Yol boyu darıxmayacaqdım, darıxmaq nədi, lap kef görəcəkdim, öz halalca arvadımdan gizli saxladığım sirləri ona açacaqdım, onunla dərd-sərimi böləcəkdim.

Çünki, bu adama hər şeyi demək olardı. Söhbət pulda deyil, amma məndən ötrü var-dövlətindən keçənin yolunda canımdan da keçərəm. Allah saxlamışın bir üz-gözündəki nura bax. Maşalla, elə bil mələk övladıdı. Bu boyda şəhərdə o boyda kəndimi tanıyan da ki, başımın ağasıdı.

- Otur gedək, - deyəndə, hiss elədim ki, ürəyim indiyəcən belə səliqə-sahmanla döyünməyib.

- Əvvəlcə evə dəyməliyəm, - dedi.

Bu sözü eşidəndə fikir məni götürdü. Bəlkə elə bu oğlanı maşın dalınca yollayıblar? Evə çatan kimi düşüb öz yerini zırramanın birisinə verəcək, həmin o zırrama da yol uzunu məni çənəsinin altına salıb çərlədəcək. Öz maşınım deyil,

özgəsini dünya dağıla aparmaram.

- Nədi, yükün var? - dedim, özü də o yükün var kəlməsini elə bərkdən dedim ki, elə bil bu kəlməylə indicə fikrimdən keçənləri də ona eşitdirmək istəyirdim.

Dinməzcə başını tərpətdi.
Arxayınlaşdım. İndi qalır yük məsələsi. Təki bir elə ağır yük olmasın. Qorxuram o zəhrimara qalmış qarpızların ucbatından işlərim korlana.

Qupquru gözlərini mənə zilləyib:
-Yox, - dedi.

Hər şey bir qarağa, amma bu sözdən sonra elə bil öz çiynim yükdən boşaldı. Deməli, indi məndən ötrü yavaş-yavaş sərinləşən bu hava kimi işlərim də qaydasına düşmüşdü. Qəflətən elə dirilib-dirçəldim ki, kefimə şərik çıxarmaqdan ötrü böyrümdə oturanı az qala qucaqlayıb bağrıma basacaqdım.

- Getdik, - dedim.

Maşın tərpənən kimi o uzaq yolumuzun nərdivanını elə indidən atmaq istədim. Görən, bu nərdivana nə təhər
çıxaq ki, düşəndə yıxılmayaq? Bir az geciksəm də, vərdişimə xilaf çıxmayıb:

- Allah Məhəmməd Ya Əli, - dedim, sonra güzgüdə yol yoldaşımın üzünü axtardım.

Pəncərədən küçəyə baxa-baxa elə bil təkcə üzünü yox, özünü də məndən gizlətmək istəyirdi. Ürəyimdə:

- Bərəkalla, - dedim, - görünür, ev-eşik tərbiyəsi görüb, qanacaq-mərifət yiyəsidi.

Sonra fikirləşdim ki, kaş oğlum da böyüyəndə ona oxşasın. Qəflətən də başa düşdüm ki, bayaqdan bəri özümə qardaş saydığım bu oğlan, əgər vaxtında evlənsəydim, lap elə mənim öz doğmaca oğlum da ola bilərdi.

- Bala, - dedim, kəndə apardığın nədi?
Gözümü pəncərədən çəkib güzgüdən mənə zillədi. Bir xeyli sonra qulağım alan səs də elə bil o güzgüdən gəlirdi.

- Yaxşı eşitmədim, deyirəm apardığın nədi?
- Tabutdu.

***

Tabutu doqquzuncu mərtəbədən ikimiz düşürdük. Əslində köməyə gələsi adam da yoxudu. Pilləkəni bir-bir düşdükcə tər məni yuyub aparırdı.

Amma isti nədi, üst-başımın islanmağını da hiss etmirdim. Görünür, bayaq tabutu qaldıranda yol yoldaşımın qəflətən elə ağlamağından hər şeyi unutmuşdum. Düzünü desəm, onu ağlatmaqda günah özümdəydi. Çünki, bayaq hər ikimiz otağın düz ortasındakı tabuta yaxınlaşanda qorxudan bütün bədənim əsmişdi.

Elə bil o rəhmətliyi özüm öldürmüşdüm, indicə əl-qolumu burub məni, allah bilir, hara aparacaqdı. Tabuta sarı əyiləndə yol yoldaşımın yapışmağıyla tabutun baş tərəfini qaldırmağı bir oldu.

Amma mənim əl-ayağım tamam keyimişdi, nə illah eləsəm də nə tabutu yerindən tərpədə bilirdim, nə özümü. Elə yerimdəcə dizüstə düşüb altdan yuxarı tabuta baxırdım. Yəqin çəpəki dayanan bu tabutun içindəki də belə bir duruşa ömür-billah nə özündə, nə də bir özgəsində rast gəlmişdi.

- Allah yerini behişt eləsin, - dedim, - görünür, rəhmətlik canlı-cəsədli kişiymiş. Qorxu-hürkünü canımdan qovmaq üçün, əslində, bu sözlə öz-özümü toxtadırdım. Amma qəflətən o gədədən elə bir hönkürtü qopdu ki, yəqin o səsi bir də eşitməkdən ötrü gərək bu dünyaya nə vaxtsa bir də təzədən gələm.

Tabutu qaldırıb maşına yükləyəndən sonra dörd tərəfini taxtayla çəpərlədim ki, çala-çuxura düşəndə qarpızlar üstünə diyirlənməsin.

Təzədən yola düzələndə yol yoldaşım yenə də dinməzcə pəncərədən çölə baxırdı. Elə bil mənə rast gələndən bəri maşından düşməmişdi, arxamızdakı tabutun da ona dəxli-zadı yoxudu.

Əslində, maşın hər dəfə çala-çuxura düşəndə tabut öz varlığını bizə eşitdirirdi, amma o tappıltı səsindən diksinən elə bircə mən olurdum.

Alacağım zəhmət haqqı indi vecimə də deyildi. İstəyir lap havayı düşüb getsəydi belə dinməyəcəkdim. Uzaqbaşı ürəyimdə fikirləşəcəkdim ki, beş-on manatla adam kasıb olmur. Deməli, itiriləsi bir şey yoxudu.

Amma özümü elə itirmişdim ki, nə eləsəm də başlamaq istədiyim söhbətin əvəlini tapa bilmirdim. Deyəsən, bayaq qaldırıb-apardığım tabutun ağırlığı canıma yaman hopmuşdu. İndi elə bil özüm də o tabutun içindəydim. handan-hana fikrimi cəmləyib:

- Nədən öldü? - dedim, - az qala nədən öldüm, deyəcəkdim.

Maşınını sür, - dedi, - bir də qəbristanlığa çatanda haqqını istə.
Səsi də qupquruydu. Boğazı elə bil suyu çəkilmiş hovuzun dibi kimi çatdamışdı.

Əgər başqa vaxt, başqa bir vəziyyətdə mənə belə bir söz deyilsəydi, çoxdan o sözün yiyəsini maşından düşürüb rədd eləmişdim. Amma indi elə bil mənim də dilim-ağzım qurumuşdu. Sözüm də hazır idi:

- O tabut, o da sən, - deyəcəkdim, - al kürəyinə, hara cəhənnəm olursan, ol.

Amma dilim gəlmirdi. Görünür, istidənmi, ya nədənsə bu bir-iki saatda hər ikisinə isinişmişdim.

Dünyayla haqq-hesabını çürüdüb indi, tabutda biryolluq susan o kişinin ömür-billah üzünü görməsəm də, onun bir kərə namərdlik eləmədiyinə, dosta can, düşmənə aman verdiyinə şübhəm yoxudu.

Məndən ötrü o kişinin yaşı da çoxudu, bəlkə lap yüzü də adlamışdı. Deyirəm axı, bayaq tabutu doqquzuncu mərtəbədən düşürəndə niyə elə ağırıdı. Görünür, ağırlığı ilə qolumu, belimi qıran o kişinin çəkisi yox, özüylə birgə son mənzilə köçən ağrı-acılı bir ömrün, yüz ilin çəkisiymiş.

Deməli, indi mən həmin o yüz ili bu dünyadan yola salan iki nəfərdən biriydim.

Qəflətən maşını saxlayıb o gədənin peysərinə bir tərs şillə ilişdirdim. Deyəsən, indi bu fikirlər beynimdən keçəndə tabutu böyrümdə oturana qısqandım.

Amma yol yoldaşımın tükü də tərpənmədi, peysərini yavaşça ovuşdura-ovuşdura:

- Hə, atamdı, - dedi.

***

Körpə dünyaya göz açanda ən əvvəl kimi tanıyır? Anasını, sonra da atasını, ayağı yer tutub yeriyəndən üzüyuxarı başlayır yavaş-yavaş özünü tanımağa. İməkləyən uşağı bələklə gör duracaq, ya yox?

O uşaq mütləq çırpınıb-çapalayıb bələkdən çıxmalıdı. Çünki, indi o, canının bir özgə əhvalını yaşayır. Mən indi burda oturub sənə dünyanın işlərini qandırmaq fikrində deyiləm. Bax indi, arxamızdakı tabutda yatan o kişini oyatsan da dirilmək istəməyəçək.

Əgər dünyanı pis-yaxşı bir dəfə görmüsənsə xirtdəyəcən bəsindi.

Vallah-billah özün qayıtmaq istəməyəcəksən. Dediyim odu ki, əgər uşaq atasız, ya anasız böyüyürsə, yaşının bir həddində ondan ötrü daha atasının, ya anasının kim olduğunun fərqi yoxdu.

Çünki, o adam indi bu vəziyyətinə elə uyğunlaşıb ki, atasının, ya anasının hardansa peyda olmağı onu ancaq darıxdıra bilər.

Üç ay bundan qabaq bir axşam çağı zəng səsinə qapını açıb atamla tapışdım. Anamın ilini təzəcə vermişdim. Yazığın nəfəsi hələ də evimin havasındaydı.

Doğrusu, ömür-billah üzünü görməsəm də, nədənsə, o kişiyə gözucu baxan kimi sifəti mənə tanış gəldi. Düzdü onun mənim atam olduğunu bilmirdim, amma elə bil hardasa rastlaşmışdıq.

- Sizə kim lazımdı, - dedim, sonra lal-dinməz dayanan bu kişiyə diqqətlə baxanda başa düşdüm ki, indicə mənə tanış gələn bu kişini elə özümə oxşatmışam.

Anam sağlığında həmişə deyərdi ki, işdi əgər mən öləndən sonra atan gəlib çıxsa nabadə onu qapıdan içəri buraxasan. Bir də qulağıma sırğa eləmişdi ki, atan nə qədər dil-ağız eləsə də qəbrimin yerini ona nişan vermə.

Özü də hər dəfə bu sözləri məni fikirli görəndə deyərdi. Bəlkə elə bilərdi ki, atasızlığımın xiffətini çəkirəm. Amma mən heç vaxt anamdan atamın bizi nə səbəbə atıb getdiyini soruşmamışdım.

Doğrusu, bunu öyrənib-bilməyə marağım da yox idi. Necə ki, atalı-analı bir adamın öz yetimliyini təsəvvürünə gətirməyə, hələ ustəlik bu təsəvvürü özünə dərd eləməyə nə marağı, nə də həvəsi var. Atası böyük vəzifədə işləyən bir dostumun bu günlərdə qayıdıb mənə dediyi bir söz hələ də yadımdan çıxmır.

- Bilirsən, - dedi, - dünyada nə qədər adam varsa, hamısı ancaq özünü sevir. Ən vəfalı övladın səhər-axşam ata-anasının canına dua eləməyi də ata-ananı yox, özünü istədiyinə görədi. Yəni ata-ananın canı sağdısa, övlad-uşağın da kefi sazdı.

Nə isə, harda qaldım? hə, atam qapının ağzında dayanıb-durmuşdu. Deyəsən, onu tanıdığımı başa düşüb əməlli-başlı karıxmışdı. Yəqin yanıma gəlməzdən mənə nə cür tanışlıq verəcəyini bir xeyli götür-qoy eləmişdi.

Əvvəl ürəyimdən keçdi ki, onu bir müddət belə vəziyyətdə saxlayım. Allah bilir,

bir də belə bir gün bəxtimə düşəcəkdi, ya yox. Amma tələsirdim, gedəsi yerim vardı.

- İçəri keçin, - dedim, - canımı bir təhər onun əlindən qurtarmaq üçün dilimə gələn elə bu bircə kəlmə oldu.

Kişi qəflətən bu sözdən dirçəlib mənə elə tərs-tərs baxdı ki, elə bil məni təpiyi altına salmaqdan ötrü əlinə fürsət düşmüşdü. Görünür, təkcə bu sözdən savayı məndən hər şey gözləyirdi. Yəni mən onu söyüb qapıdan qovmalıydım, hansısa bir filmdə olduğu kimi:

- Get, - deməliydim, - sən ata deyilsən, hələ sənin başına ata çəkici dəyməyib.

Niyə axı? Nə səbəbə?

Nə isə, birtəhər o kişini içəri salıb yerini-yurdunu ona göstərəndən sonra özüm çıxıb getdim.

Hə, indicə sənə demək istədiyim söz yadıma düşdü. Amma həmin sözə görə bəri başdan ya səndən üzr istəyirəm, ya da deyirəm yerin məlum. Dediyim odu ki, həmin gün elə bir cananın qucağındaydım ki, başım-bədənim hələ də mənim deyil. Canan deyirəm sənə, zalım qızı elə bil yağ-böyrək içində bəslənmişdi.

Nə isə, qayıdıb görürəm ki, atam bayaq necə qoyub getmişəmsə, eləcə oturub yolumu gözləyir.

- Niyə rahatlanmamısız? - deyirəm.
Dinmir. Düz gözlərimin içinə baxır. handan-hana:

- Bala, tanıdın məni? - deyir.
Başımı tərpədib:

- Durun, - deyirəm, - qalxın, əl-üzünüzü yuyun.
Doğrusu, yanımda narahat adam görəndə darıxıram.

Amma bu kişi nə gözünü məndən çəkirdi, nə də dediyindən əl çəkirdi. Bəlkə də yüzüncü kərə:

- Tanıdın məni? - deyəndə, gördüm daha dözə bilmirəm.

- Nə dəxli var? - dedim, - Bəs sən necə, tanıdın məni?

Kişinin ağzı o bağlanan biryolluq bağlandı. Görünür, bu mənasız söhbətin heç birimizə dəxli olmadığını axır ki, başa düşdü.

Yatanacan dinib-danışmadıq. Süfrəyə gətirib-düzdüyüm çay-çörəyə nə əlini vurdu, nə də heç olmasa söz xətrinə yeyib gəlmişəm, dedi. Bir xeyli gözləyəndən sonra süfrəni yığıb elə həmin otaqda ona yer saldım.

Kişidən ötrü döşəməyə sərdiyim yorğan-döşəkdə bir vaxtlar anam yatardı. Nədənsə, rəhmətlik arvadın çarpayını görən gözü yoxudu.
Hər dəfə yerinə girib gözlərini yumanda ölümünü görmək istəyərdi. Hər iki qolu qanad kimi açılıb döşəmənin üstə düşəndə öz-özünə pıçıldaya-pıçıldaya:

- Vaxtım çatıb, allah, - deyərdi, - yerə yaxınam.

Doğrusu, adamın doqquzuncu mərtəbədən yerə necə yaxın olmağı bu günəcən məndən ötrü sirr qalıb. Amma inanırsanmı, həmin gecə təxminən eyni sözü o kişinin də dilindən eşitdim.

Əvvəl istədim qalxıb yerimi onunla dəyişim. Sonra fikirləşdim ki, əgər belə eləsəm, gərək bir də ömür-billah öz yerimdə yatmayam.

Nədənsə, mən də belə adamam. Mənim bu halımdan elə bil kişi duyuq düşdü, düz səhərəcən cınqırını da çıxarmadı. Mən də rahatca yıxılıb-yatdım.

O gündən bir damın altında ikilikdə yaşamağa başladıq. Amma doğrusu o kişi mənə bir elə mane olmazdı. Bütün günü öz aləmindəydi: hər dəfə otağın bir küncündə altına çəkib oturduğu stuldan da elə bircə ona görə seçilərdi.

Evdə məndən savayı da kiminsə yaşadığını ancaq səhərlər hiss eləyərdim. O kişi bircə kəlmə söz deməkdən ötrü hər səhər məndən qabaq oyanıb işə getməyimi gözləyərdi. Elə əlimi qapıya uzadan kimi arxadan qulağıma bir kal səs dəyərdi.

- Oğul, atanla görüşdüyünü dost-tanışa bildirmə.

Amma mən qapıdan çıxan kimi o kişi də yadımdan çıxardı, bir də qayıdıb üzünü görməyincə yadıma düşməzdi.

Bir səhər yuxudan oyanıb gözümü açanda o kişini başımın üstünü kəsdirib-duran gördüm. Üz-gözündə elə bir yorğunluq, süstlük varıydı ki, elə bil bütün gecəni daş daşımışdı.

- Qulaq as, - dedi, sonra yenə bir xeyli donub qaldı.

Deyəsən, nə vaxtdan bəri hazırlaşdığı söhbətə başlamağa hələ ehtiyat eləyirdi. Yəqin qəflətən dikəlib:

- Qulaq asıram, - deməsəydim, o söhbət allah bilir, nə vaxta qalacaqdı.
Kişi əlini uzadıb, yavaşcadan saçımı sığalladı. Deyəsən, səsimdəki bu hirs-hikkədən həm qorxmuşdu, həm də bir balaca kövrəlmişdi.

- Bala, - dedi,- indi sənə eləyəcəyim söhbət məndən ötrü ölüb-dirilmək kimi bir şeydi.

Başa düşdüm ki, söhbət uzun çəkəcək. Yaman dilxor oldum. Çünki, hər səhər yuxudan oyanan kimi gedib əl-üzümü yumasam, öz-özümdən iyrənirəm. Amma ayrı əlac yoxuydu.

- Eşidirəm,- dedim.

İndi o kişinin hekayətini sənə uzun-uzadı danışmaq fikrində deyiləm. həm çoxlu vaxt aparacaq, həm də həvəsim yoxdu.

Əslində, yadımda da sən deyən elə şey qalmayıb. Çünki, məndən ötrü o söhbətin marağı yoxuydu. Düzü qulaq da asmadım. O kişi nə danışdı, nə dedi, bir allah bilir.

Bir allah bilir, bir də tabutdakı o kişi.

***

...Oğul, bu dünyada alın yazısı deyilən bir şey var. Kimisi öz alın yazısını özü yazır, kimisi özgəsinə yazdırır, ya da ki, özünün, ya özgəsinin əliylə öz alın yazısının başına min bir oyun açır.

Elə adamlar da var ki, dünyaya köç eləyib, dünyadan köç eləyincə ömür yolunun alın yazısı deyilən o düyün-döngəsindən yerli-dibli xəbəri olmur.

Bil ki, bundan sonra min il yaşasan da sənin anan qədər öz alın yazısının qulu-nökəri olan ikinci bir allah bəndəsinə rast gəlməyəcəksən.

O arvad cəmi üç işin öhdəsindən gəlməkdən ötrü doğulmuşdu. Əvvəli buydu ki, bütün ömrü boyu abır-həyasını qorusun, sonra rastına çıxan elə birinci kişiyə ərə getsin, bir də tale qismət eləsə o kişinin belindən gələn övlad-uşaqlarını böyüyüb boya-başa çatdırsın. Qalan heç nəyin sənin anana dəxli-zadı yoxudu.

Bir dəfə elə sən yaşda olanda canavarla rastlaşmışdım. Üz-üzə, göz-gözə

qalmışdıq. Əslində, o canavardan bir elə qorxum yoxudu. Əlimdə tutduğum tüfənglə onu istədiyim vaxt vurub-öldürə bilərdim.

Yadımdadı, həmin gün ömrümdə birinci dəfə rastlaşdığım canavar deyilən o məxluqun canavarlığına doyunca baxmaq istəyirdim. Amma bacarmırdım. Bildiyim bircə oydu ki, qabağımda dayanan canavardı, vəssalam.

Sənin anan da məni birinci gündən həmin o canavar kimi görmüşdü. Mən dünyanın ən kifir, ən bədheybət məxluqu da ola bilərdim, üzündən nur yağan mələyi də. Mən əzazil, qaniçən bir əclaf da ola bilərdim, imam övladı da. Sənin ananın bildiyi bircə şey vardı: mən onun kişisiyəm, vəssalam.

Amma məndə canavarlıqdan əsər-əlamət yoxudu. Mən hələ uşaqlıqdan, qanıb-qanmadığım gündən yiyəsiz-kimsəsiz böyüyən quzuydum. İşimin-peşəmin adı bütün günü künc-bucaqda büzüşüb dayanmağıdı.

Bir tikə çörəkdən ötrü hər yoldan keçənə ümidlə baxıb gözümü onun-bunun qapısına dikmişdim. Hərdən-hərdən məni yanına çağırıb başımı sığallayan, cibimə qəpik-quruş qoyan tapılırdı. Hələ desəm, qarnımı doyurmaqdan ötrü döydüyüm qapılar da üzümə açıq idi.

Amma mən o ev yiyələrindən ötrü qapıya gələn yetim bir allah bəndəsindən savayı bir şey deyildim. O adamlar qapısına gələn hər bir bəndəni eynən mənim kimi doyurub yola salacaqdılar.

Deməli mən bir quruca rəhmi də öz hesabıma yox, yetimliyimin hesabına qazanmışdım.

Əvvəl elə bilirdim ki, həmişə belə olacaq. Amma bir az böyüyən kimi o qapılar da bir-bir üzümə bağlandı.

Çünki, mən böyüdükcə bığ yerim tərləyirdi, o həyət-bacaların körpə-körpə qızcığazları da böyüyüb xanım-xatun qızlar olurdular. Amma tək bir qapı mən lap yekə kişi olanacan üzümə bağlanmadı. Ora sənin babanın ev-eşiyiydi, sənin ananın yurd-yuvasıydı.

Sənin baban müflisləşmiş bir bəyidi. Necə olsa, sənin anan da bəy qızıydı, xanımıydı. Amma baban yaman zalım adamıydı, qızına gün verib işıq verməzdi. Elə nə vaxtsa əlindən çıxmış o var-dövlətin hayfını qızından alardı.

Hər dəfə dava-dalaşın üstünə gəlib çıxanda onun üzündə nəsə bir qəribə ağalıq görərdim. Əslində, öz bəyliyini heç olmasa təkcə özünə sübut eləməkdən ötrü qızından savayı ərki çatdığı bir kimsəsi də yoxudu. Amma qızı da onun bu hərəkətlərinə öyrəncəliydi.

O söyüşləri, hədə-qorxuları dinləyə-dinləyə rahatca süfrə açardı, çay-çörək gətirərdi.

Amma mən o süfrə yığılanacan sənin babanla danışa-danışa qorxu-hürkünü canımdan qova bilməzdim. Elə bilərdim ki, sənin baban indicə tək mənim yaxamdam yapışıb üzümə itin sözün deyəcək, sonra da ayağının altına salıb qol-qabırğamı sındıracaq ki, onun qızı yetişən bu evə bir də ayaq qoymayım. Amma baban günlərin bir günü:

- Sözün nədi, - dedi, - istəyirəm qızımı sənə verəm.

Sənin babanın istəyi məni özünə kürəkən yox, öz xanım qızına nökər eləməyidi. Mən də inan ki, o vaxtacan babanın qorxusundan kəlmə kəsmək nədi, heç ananın üzünə də əməlli-başlı baxmamışdım. Amma o sözü eşidəndə gözümü də qırpmadım, bir nəfəsə:

- Razıyam, - dedim.

Çünki, mənim də istəyim sənin babana nökər olmağıdı. Ümidim bircə ona qalmışdı. Elə bilirdim ki, baban söyə-söyə, döyə-döyə yetimliyimi canımdan çıxaracaq, məni adam eləyib adamlara qoşacaq. Amma zalım oğlu elə bil qızının ərə getməyini gözləyirdi.

Elə toy günümüzün səhəri yuxudan oyanmadı, o hirsli-hikkəli canını bizə tapşırıb arxayınca dünyadan köçdü.

Həmin gün ananın gözündən bir damla da yaş çıxmadı. Qupquru gözlərini maddım-maddım mənə zilləyib:

- Olacağa çarə yoxdu, - dedi, - indi bu evin yiyəsi sənsən.
Deməli, sənin baban səhv eləmişdi, xanım bildiyi qızını qulluqçu kimi böyütmüşdü. İndi ağa ölmüşdü, bir damın altında qulluqçuyla nökər qalmışdı.

Amma ağasız yaşamaq, deyəsən bizdən ötrü müşkül məsələydi. Özümüzə təzə ağa tapmalıydıq.

- Oğlumuz olacaq!

Ananın bu xəbəri mənə haçan, necə gəlib dediyi yadımda deyil. Bircə o yadımdadı ki, həmin gün bərk acmışdım. Özü də nə qədər yeyirdimsə, doya bilmirdim. Yazıq anan o dopdolu qazanla ac qarnımın arasında qalmışdı, elə bir ucdan boşqabımı doldurub gətirirdi. Deyəsən, elə arada da lap astadan:

- Oğlumuz olacaq, - dedi.

Vallah, elə də dedi. Elə bil səni bütövcə öz əliylə gətirirdi.
Hələ sən adda adamın bu dünyada izi-tozu yoxudu, amma gəlirdin.

Elə bilirdim ki, sənin gəlişinlə hər şey dəyişəcək, o hirsli-hikkəli babanın ruhu da sənlə qayıdacaq. Amma sonra hər şey alt-üst oldu. Başa düşdüm ki, o gələn sən deyilsən, özüməm. Çünki, ananın qarnı böyüdükcə eynən mənim sifətimə oxşayırdı.

Yox, bir evdə iki nökərə ehtiyac yoxdu. Başa düşdüm ki, çıxıb getməyim məsləhətdi. Səni anana, ananı da sənə tapşırıb o evdən biryolluq yox oldum. Lap düzünü desəm, özümdən çox sənə qıymırdım.

Mən olan evdə sən öz ömrünü yaşaya bilməyəcəkdin.

Çünki, özümə bələddim, mənim yazıqlığımdan, məzlumluğumdan yaxa qurtarmaq müşkül məsələydi. Xəbərin də olmayacaqdı, ata dediyin o adamın yazıqlığını, məzlumluğunu əzizləyə-əzizləyə, sevə-sevə mən yaşa çatanda bir də ayılıb biləcəkdin ki, mənim ömrümə aldanıb öz ömrünü bada vermisən, sən də atan kimi mağmın olmusan. Səni azad buraxıb elə həmin gündən öz ömrümü büsbütün sənə qul elədim.

Sizdən uzaqda bir ev kirayə elədim. Elə həmin gündən təkcə o evin yox, öz ömrümün yiyəsi deyildim. Çünki, mən adda adam qurtarmışdı.

O adamın işi-peşəsi gündüzləri-gecələri saya-saya sənin yolunu gözləmək idi.

Amma səndən arxayındım, bilirdim ki, sən böyüyüb-başa çatınca anan bir kəsə də möhtac olmayacaq. O arvada bələddim, özünü oda-alova vurub səni dünyasında yalın qoymazdı. O arvaddan ötrü sən özün də bir cür qazancıydın.

Böyüyüb əlin pul görən gündən ananın bütün xərclərini bircə-bircə qaytarmalıydın, ananı ağ günə çıxarmalıydın.

Məndə uduzmuşdu anan, amma səndə uduzmayacaqdı. O arvad ancaq bir kərə çaşa

bilərdi. Ananı doqquzuncu mərtəbədə aldığın mənzilə qaldırdığın gün başa düşdüm ki, arvadın istəyi ürəyində qalmadı.

İşdən nə vaxt çıxdığını öyrənib günümü oralarda keçirərdim. Hərdən-hərdən səni gözümdən qaçıranda bütün günü dəli kimi olardım. Amma sənə yaxınlaşmağa ürək eləməzdim. Çünki, sən uşaq vaxtı qıraq-bucaqdan baxdığım o varlı-karlı adamlara çox oxşayırdın. Cibimə üçdən-beşdən qoyub məni öz yolundan kənar eləyə bilərdin.

Ümidim bircə anana qalmışdı. Əgər göydə allah vardısa, o arvad məndən əvvəl ölməliydi, mən də olub-keçənlərin hamısını gəlib sənə danışmalıydım.

Sonra anan rəhmətə getdi.

Allah yerini behişt eləsin, yaxşı anaydı. Sən də onu yurd-yuvasında, öz kəndinin qəbristanlığında ədəb-ərkanla dəfn elədin. Həmin gün mən də dəfndəydim. Ananı torpağa tapşıranda məndən bir dəhşətli hönkürtü qopdu. Səsimi eşidirdim, amma kiriyə bilmirdim.

Elə bil səsim harasa ora-bura səpələnmişdi, nə illah eləyirdimsə, yığıb-yığışdıra bilmirdim. Birtəhər başımı qaldıranda ən əvvəl səni gördüm. Qabağımda dayanıb qupquru gözlərini mat-mat mənə zilləmişdin.

Yəni, bu kişi kimdi görən? Başa düşdüm ki, dəfndə bayaqdan bəri məndən savayı ağlayan olmayıb. Tez özümü cəmləyib səsimi kəsdim. Amma sən eləcə dayanıb-durmuşdun.

Əlbəttə, mənim kim olduğumu bilmək səndən ötrü çox maraqlıydı.

Dəfn başlanandan darıxa-darıxa qalsan da dostların səni çəkib aparanda hiss elədim ki, o hönkürtünün hansı mətləbə dəxli olduğunu öyrənə bilmədiyinə yaman heyfslənirsən.
Bil ki, həmin gün mən sənin anana yox, özümə ağlayırdım.

Ata bir balasını əzizləyib o birini vecinə almayanda həmin uşaq atasından necə küsüb ağlayırsa, bax mən eynən o cür səndən küsmüşdüm. Yəqin bilirdim ki, ömür-billah məni bu cür təmtəraqla dəfn eləməyəcəksən.

Həmin o bircə günün içində qəflətən səndən elə soyudum ki, elə bil sən adda adamı o günəcən özümdən uydurmuşdum. Amma anan kimi mən də öz istəyimə çatmışdım. Sən mənə yox, babana çəkmişdin.

Sən mənə yadıydın, amma dırnaq barmağa yad olan kimi yadıydın. Mən istədiyim vaxt səni rahatca kəsib ata bilərdim, amma büsbütün çıxarıb canımdan biryolluq qopara bilməzdim. Onda ağrınardım.

Elə o gün də başa düşdüm ki, bundan sonra məndən ötrü dünyada olub-qalan bircə şey yenə də ölümü gözləməkdi. Bu dəfə öz ölümümü gözləməliydim.

Əcəlin asta-asta qapımı döydüyü gün sənin yanına gəldim. Əslində, məni bu dünyadan o birinə yola salmağa başqa bir kimsəm yoxdu.

Qapına gəldiyim elə birinci gün sənin kimliyin mənə büsbütün bəlli oldu. Neynək, mənimki də belə gətirdi.

Bilirəm ki, məni xəlvətcə aparıb dəfn eləyəcəksən.

Çünki, mən adda atan olduğunu kiminsə bilməyini istəmirsən.

Səndən bircə xahişim var. O allahın altında bircə bu xahişimi eşit. Məni öz kəndimizin qəbristanlığında, ananın yanında basdır...

***

Maşın dayanmışdı. Başımı pəncərəyə söykəyib, deyəsən yuxulamışdım. Yadıma nə düşdüsə diksinib ayıldım. Yol yoldaşım yoxudu.

Tez maşından düşüb o yan-bu yanı axtardım. İns-cins gözə dəymirdi. Bütün günü bir-birinin ardınca bu yolla şütüyən maşınlar da elə bil həmin o yol yoldaşımla birgə qeyb olmuşdu.

Sonra var səsimlə onu haylamağa başladım. Amma səs-səmir gəlmirdi. Yəqin, bu söz-söhbətin, bu əhvalatın hamısını yuxuda eşidib-görmüşdüm. Ürəyimdə:

- Hamısı zəhrimara qalmış istidəndi, - dedim, - görünür, gün başıma vurub.

Qalxıb maşına oturdum. Amma maşın tərpənən kimi, qəflətən qulağıma tappıltı səsi gəldi. Dəli kimi dönüb arxaya baxdım. Tabut yerindəydi.

Kəndə gecə çatdım. Maşını kəndin girəcəyindəki qəbristanlığın yanında saxladım. Qəbiristanlığın lap aşağısında o kişinin qəbrini qazdım.

Bu işi əziyyətsiz-filansız görüb-qurtardım. Çünki, elə qarasına seçib qazdığım

torpaq yupyumşağıdı, gili, düyünü yoxudu. Sonra tabutu maşından düşürdüm. Amma bayaqkı ağırlığı hiss eləmirdim.

Görünür, içindəki bütün o söz-söhbətini canından çıxardığına görə tabut da yüngülləşmişdi. Bir ara ÿrəyimdən keçdi ki, kəndə düşüb molla çağırım, kişinin üstündə yasindən-zaddan oxutdurum. Amma kəndi-kəndimdən, dili-dilimdən olsa da, allah bilir, o kişi hansı din-məssəbin yiyəsiydi.

Tabutu torpağa tapşırıb bir xeyli yerimdəcə baxa-baxa qaldım. Deyəsən, o tabutu adam gözündən biryolluq gizlətdiyimə arxayın olmaq istəyirdim. Ħandan-hana : - Di indi rahat yat, - dedim.

Özüm də toxtamışdım. Qayıdıb maşına yaxınlaşanda birdən-birə bərk acdığımı hiss elədim. Yadıma düşdü ki, səhərdən bəri dilimin altından su da keçməyib. Bir qarpız seçib tən ortadan böldüm. Yaxşı ki, qarnımda bir şey yoxudu, yoxsa, o qarpızın rəngini görən kimi qusub-qaytaracaqdım.

Hələ bu vaxtacan rastıma bu cür ağappaq qarpız çıxmamışdı. Lap meyit rəngindəydi.

Evə gəlib çatanda gecə yarıdan ötmüşdü. Amma bütün otaqların işığı yanılıydı. Qaranəfəs içəri cumanda övlad-uşağın hamısını oyaq gördüm.

- Nədi, olmaya... Böyük oğlum irəli gəlib: hə, dədə, - dedi, - anamız yenə cüt doğdu.

Dünyaya təzəcə gələn bir cüt balamın oğlan ya qız olduğunu soruşmağa halım yoxudu.

Saymağa gücüm ancaq çatdı: deməli belə, səkkiz uşaq atası. Sonra eləcə, yorğun-arğın necə yerimə girib, nə vaxt yuxuya getdimsə xəbərim olmadı.

Həmin yay başıma gələn əhvalat budu.

Nədənsə, axır vaxtlar hərdən-hərdən istəyirəm ki, xəlvətcə gedib o tabutu yerdən çıxaram, heç olmasa bircə kərə o kişiyə baxam.

Amma ürək eləmirəm, qorxuram ki, tabut boş olar.

# AYRILIQ

*(Hekayə)*

Anayla oğul yola ertədən çıxmışdı, indi ayaqlarını güclə çəkirdilər, ikisi də heydən düşmüşdü, çünki bayaqdan kəlmə də kəsməmişdilər, yolun yorğunluğunu hərə təklikdə daşıyırdı.

Ana axır gücüylə olsa da addımlarını yeyinlətmək istəyirdi, qaş qaralanacan mənzil başına çatmaq lazımıdı ki, oğul geri qayıdanda gecəyə düşüb qurd-quşa yem olmasın. Oğul da darıxırdı, istəyirdi, tez-tələsik anasından, axır vaxtlar onun gününü qara eləyən bu arvaddan canını biryolluq qurtarsın. Tay-tuş qabağına çıxmağa da üzü yoxudu, hamının yanında gözü kölgəliydi. Niyə axı, bu qədər adamdan bircə onun anası erməniydi? Görən, Allah hansı günahına görə ona bu cəzanı vermişdi?

Yox, bütün bu zülmü ona çəkdirən Allah deyildi, səhərdən-axşamacan yuxulu milçək kimi gözünün qabağında fırlanan o cansız bədəniydi, atasıydı. O vaxt əgər kəndin bütün oğlanları kimi ədəb-ərkanla elçi gedib qohum-qonşudan birinin halal südəmmişini istəsəydi, şorgözlüyünün ucbatından bu erməni qızına tuş gəlməsəydi indi o da bu əzabı çəkməzdi.

Bayaqdan özünü tox tutan anasının üzündə qəflətən bir ağrı gördü. O arvad elə bil ayağıyla yox, sifətiylə yeriyirdi ki, axsamağı bilinməsin.
Keçən yay qonşu arvadın oğlunun meyitini davadan gətirəndə dərdini ovutmaqdan ötrü əli nəyəsə çatmayanda birbaş onların həyətinə cumdu, əlinə keçən dəmirlə onun anasının ayağını qırdı. Amma o boyda ağrının içində anası cınqırını da çıxarmadı. Bir də ki, nə faydası, onsuz da kişisindən, oğlundan qahmar duranı olmayacaqdı. Balaca qızıyla evin bir küncünə çəkilib düz bir həftə adam üzünə çıxmadı. Elə indi də yaralı ayağı ağrıdıqca ana evdə xəstə qoyub çıxdığı qızını fikirləşirdi.

Uşaq neçə günüydü qızdırmanın içində yanırdı. O gün həkim gəlib yoluxandan sonra, - soyuqdəyməsi-zadı yoxdu,- dedi, - bərk qorxu keçirib. Gedəndə də anaya tapşırdı ki, nabadə o uşağın yanında səsinizi qaldırasız.

Bayaqdan lal-dinməz oğlunun qabağına düşən ana dillənmək istədi, bircə kəlmə,- balamdan muğayat olun, - deyəcəkdi, amma zorla da olsa səsini boğub yaralı ayağına güc verdi.

O qız qardaşının da yadına düşmüşdü. Nahaq belə tələsdi, gərək bacısının sağalmağını gözləyəydi. Yəqin indi uşaq yuxudan oyanıb qızdırmanın içində yana-yana yenə sayıqlayır, anasını çağırır...

Cəhənnəmə sayıqlasın, istəyir lap ölsün! Bütün bu dərd-azar bu evə elə o uşaqla gəlmədimi? Necə ağır ayağı vardısa, doğulmağıyla aləmi bir-birinə qatdı. Bu vaxtacan anasının erməniliyini üzünə vuran kimiydi? Hələ desən, kəndin arvadları onun anasını bir-birinə məsəl çəkərdilər. Çünki bu kəndin yasında o arvaddan bərk ağlayanı, toyunda çox oynayanı olmazdı.

- Yeyin yeri, it qızı!
Bu söz dilindən nə təhər çıxdısa, özünün də xəbəri olmadı. Əslində, anasından ayağının ağrıyıb-ağrımadığını soruşmaq istəyirdi. Ana zorla da olsa yaralı addımlarını yeyinlətdi.

İlahi, indi onu qabağına qatıb-aparan bu ilkbeşiyi sonbeşik bacısını necə istəyirdi? Ana bu sütül sevgini bu illər uzunu hiss eləmişdi. O qızcığaz gələnəcən oğlu elə yovuşmaz, fağır bir uşağıdı ki, elə bil yarımçıq doğulmuşdu. Bacısı gələndən sonra bütövləşdi, dirçəldi. Elə bil o qız o oğlanın canında çatışmayan nəsə bir yer idi, gəldi, üstünü örtdü. Ana özündə nəsə bir toxtaqlıq hiss elədi. Yox, bu iki balasının daha ona ehtiyacı yoxudu, bir-birlərindən muğayat ola-ola canlarını ölməyə qoymayacaqdılar.
Kişisi də onsuz birtəhər ömrünü yola verəcəkdi. Amma əslində, arvadının yanında olub-olmamağının o kişidən ötrü elə bir fərqi də yoxudu. Təkcə arvadınınmı? Əgər Allah o kişiyə on övlad versəydi, yeddisi də qəflətən yoxa çıxsaydı, o kişi bunun səbəbiylə da maraqlanmayacaqdı. İyirmi il bir damın altında yaşasalar da, ondan bir kərə də nəsə soruşmamışdı.

Təkcə o siftə vaxtlarda yatağa girəndə hərdən-hərdən bircə kəlmə "başlayaqmı" deyərdi, amma onda da cavab gözləməzdi. İndi o arvad yəqin bilirdi ki, oğlu onu ötürüb geri qayıdanda da o kişi ondan anasının hara yox olduğunu xəbər almayacaq. İndi nədi, əgər sağ qalsa üç il, beş il, on il sonra da arvadının birdən-birə qeybə çəkilməsinin səbəbini öyrənməyəcəkdi. Deyəsən, o kişinin heç onu özünə necə arvad eləməyindən də xəbəri olmamışdı. Bir gün baxıb-görmüşdü ki, bəs özündən savayı da yanında kimsə var.

Sabah da baxıb-görəcək ki, yanındakı yer yenə boşdu, vəssalam. Əgər qəfil ayılıb bütün dünyanın bircə özündən ibarət olduğunu bilsəydi belə yenə o kişidə nəsə dəyişməyəcəkdi. Elə bil içinin bütün lampaları sönmüş quru bədən idi, nəyisə görmək, ya eşitmək üçün gözündə, qulağında işıq deyilən şeydən əsər-əlamət yoxudu. Bunu o arvad bir yastığa baş qoyduqları elə həmin o birinci gecədə başa düşmüşdü.
- Atandan muğayat ol.

Ata nədi, ata yada düşür?
Doğrudan da bu yol yaman uzandı. Səhər tezdən anasını qabağına qatıb evdən çıxanda elə bilirdi ki, qaş qaralanacan qayıdıb-gələcək. Görünür, hesabında çaşmışdı. Gün çoxdan batmışdı, amma anasının kəndi görsənmək istəmirdi. Qəflətən oğulun özünü də bir vahimə bürüdü. Doğrudan da gecənin bu nabələd çağında geri tək necə qayıdacaqdı?

Yox, əslində, bu yol belə uzanmamalıydı. Bu yola ovcunun içi kimi bələdiydi. Bir vaxtlar babasını yoluxmaq üçün ana-bala bu yolu çox getmişdilər. Hər dəfə də mənzil başına gün işığında çatardılar, hava bir xeyli hal-əhval tutandan, süfrə yeyilib-yığılandan sonra qaralardı. Bəs onda, indi bu yolu dartıb-uzadan nəydi?
- Yeyin yeri, it qızı!

Amma bu dəfə oğulun səsi bayaqkı kimi gümrah çıxmadı, elə bil səsinəcən yorulub-heydən düşmüşdü.
Bəlkə hələ gec deyil, nə olsun, bu qədər yol gəliblər, bəlkə hər şeyi təzədən qaytarıb yerinə qoymaq olar? Nəsə qəflətən oğulun ürəyindən keçdi ki, elə burdaca dayansın, əvvəlki kimi ana-bala bu yolu getdikləri tək bir yerdə də qayıtsınlar. Ürəyindən keçən az qala dilinə də gələcəkdi, "ana, gəl qayıdaq" deyəcəkdi, amma dünən gecə o arvadın ağzından çıxan, onu hövsələdən çıxarıb bu uzun yola çıxaran həmin söz yadına düşdü.

"Niyə o yazıqları öz evində rahat yaşamağa qoymursuz?"
Bu sözdən sonra oğul cınqırını da çıxarmadı, amma bütün gecəni gözünə yuxu getmədi, yerinin içində qurcalana-qurcalana səhəri gözlədi.
Hansı yazıqları?!
Kimin evində?!

Hava azca işıqlanan kimi anasını oyatmağa gələndə o arvadın da gözlərini açıq gördü. Anasının da o sözü deyəndən yerinə girənəcən səsi çıxmamışdı, deyəsən, o arvad da oğlunun gəlib onu oyadacağını gözləyə-gözləyə səhəri dirigözlü açmışdı. Oğlunun qabağında dayandığını görəndə də karıxıb-eləmədi, astaca yerindən qalxıb üst-başının əziyini düzəltdi, sonra dinməzcə yola düzəldi.

"Niyə o yazıqları öz evində rahat yaşamağa qoymursuz". Bu evdə, evində hər şeyi öz yerinə qaytarıb sahmana salmaq istəyən ana bu bircə nəfəslik kəlməsiylə hər şeyi alt-üst etdiyini bilib dünən gecədən özüylə vuruşmaqdaydı. Amma olan olmuşdu, keçən keçmişdi və səbri daşmış oğula bundan sonra nəsə kar eləyən deyildi. Beləcə, düz ertədən həmin evdən başlanan bu yolun nizamı bir dəfə də pozulmadı, ana qabağı, oğul arxanı tutub gəlirdi.
Oğul başa düşdü ki, artıq gecdi, anasını özüylə geri qaytara bilməyəcək.

Get-gedə bu yol da yorulmuşdu, yumşalmışdı, ərimişdi. Eynən dəniz kimiydi. İndi

də ana-bala gəlib dənizin düz ortasına çıxmışdılar. Hər ikisinin bayaqdan dinclik bilməyən canı tamam taqətdən düşmüşdü, boğulan anasını da kürəyinə alıb üz-üzə təzədən bu boyda dənizi geri qaytarmağa oğulun heyi nə gəzirdi.
Oğul:
- Yeyin yeri, - dedi, amma bu dəfə anasını söyməyə dili gəlmədi. Deyəsən, hirsi soyumuşdu.

Ardınca elə bil qəflətən hansısa bir dəhşətli yuxudan ayıldı. Bu nədi, niyə anasını qabağına qatıb aparır? Bu hardan ağlına gəlib?
Oğulu qəflətən bir qəribə üşütmə tutdu, elə bil bayaqdan buz bağlayan canının donu asta-asta açılırdı.
Sonra qulağına dünyanın o başından səs gəldi: "Anamı qaytar!"

Bacısının səsiydi.
Oğulun içində qəflətən nəsə qırıldı. Bacısının ordan gələn səsini, burda necə eşidə bilərdi?
Ayaq saxladı. Anası da dayandı. Deyəsən, balasının səsi o arvadın da qulağına gəlib-çatdı.
- Bacından da muğayat ol.
Sonra anası adda-budda işıqları yanan kəndə sarı uzanan yolun qaranlığında itib yox oldu.

* * *

Ana itib yox oldu, amma qaranlıq yerindəydi və oğul illər uzunu, bəlkə də ömrü boyu qara deyilən rəngi bu qaralıqda görməmişdi. Deməli, hər şey bitdi, öz kəndinə - yazıqlarının yanına ötürüb o arvaddan biryolluq xilas oldu, indi rahat geri qayıda bilər. Oğul canında bir yüngüllük hiss elədi. Elə bil təkcə anasını yox, bütün keçmişini özündən ötürüb lüt-üryan qaldı. Doğrudan da, insan ürəyi istəyən andaca hər şeyi təzədən başlaya bilər, qəzavü-qədər taleyi azdıra bilməz. İlahi, insan bir andaca nə qədər rahatlana, yüksüzləşə, boşala bilərmiş.
Kəraminə şükür, Allah, canımı qurtardın.

Allah, sənə şükür! Oğul içində, çölündə nə varsa hamısını özündən çırpmaq istədi ki, geri bambaşqa qiyafədə qayıtsın. Elə təzəcə dönmüşdü ki, gəldiyi yolla da qayıda, düz qabağında peyda olan canavarı gördü. Amma baxışlarında canavarlıqdan əsər-əlamət yoxudu. Görünür, ana-bala yola çıxandan bu canavar da qarabaqara onların ardınca gəlmişdi, yolu boyu ov kimi izlədiyi bu iki məxluqa get-gedə öyrəşmişdi, isinişmişdi, indi də oğul ondan ötrü daha ət kimi maraqlı deyildi.

Ertədən qoyub çıxdığı evə oğul bir də gecə gəlib çatdı. Kəndin bütün işıqları sönmüşdü, ins-cins gözə dəymirdi. Amma həyətin darvazasını taybatay açıq gördü. Qəflətən bu səhər evdə qızdırmalı qoyduğu bacısı yadına düşdü.
Sonrası yadında deyildi.

# DƏFN

*(Hekayə)*

Qulam həyətə girəndə arvadı eyvanda oturub yun çırpırdı. Salam-kəlamsız qızını soruşdu. Arvadı başını qaldırmadı, çubuğa ilişən yunu silkələyə-silkələyə:

- Hələ gəlib çıxmayıb, - dedi.
Qulam astadan:
- Get hamamı qızdır, - dedi, - yorulmuşam.
Yarım saatdan çox idi ki, hamamdaydı. Amma bayaqdan bəri içəridən nə su şırıltısı, nə də ayrı bir səs-hənirti eşidilirdi.

Qulam oturub ayaqlarını ılıq suyla dolu verdəyə sallamışdı. Əynini soyunmamışdı, təkcə şalvarının balaqlarını çırmalamışdı: çəkmələri vedrənin bir yanındaydı, corabları də çəkmələrin içində.

Yuxarıda, hamamın tavanından bir parça suvaq qopub tökülmüşdü, yeri qaralırdı. Qulam bayaqdan başını qaldırıb dinməzcə o qaraltıya baxırdı.
Çöldən zərblə yuna çırpılan çubuğun vıyıltısı eşidilirdi. O çubuq hər dəfə elə bil ürəyinə dəyirdi, ürəyini ağrıdırdı.

Qəfil hamamın qapısı cırıldayıb açılanda Qulam ağır-ağır başını aşağı yendirdi. Arvadıydı.
- Nə istəyirsən?
- A kişi, bəsdi, çıx.
Deyəsən, arvadının səsi titrəyirdi. Çünki o arvad hələ indiyənəcən kişisini belə fikirli görməmişdi.

Sonra hamamın qapısı yenə örtüldü. Qulam bu dəfə başını qaldıranda tavandakı o qaraltını görmədi, bir sonsuz qaranlıq gördü. O qaranlıq Qulamı özünə çəkirdi, sümürürdü.
Nəsə qorxan kimi oldu. Ayağını sudan çıxarmaq istədi, bacarmadı…

***

Yusif teleqramı günorta aldı.

«Sabah dəfndi, özünü çatdır».

Evdə tək idi. Siqaret yandırıb eyvana çıxdı.
Dəfndi. Kimin dəfnidi? Tamam keyləşmişdi. Hava bürkülüydü, bəlkə də yağış yağsaydı, bir balaca beyni açılardı.

Amma yox, ölən anasıydı. Əgər Yusif bu teleqramı indi yox, düz on il əvvəl alıb oxusaydı yenə gözünün qabağına anası gələcəkdi. Anasını yorğan-döşəyə salan o naxoşluğun adını Yusif çoxdan unutsa da, haçansa belə bir teleqram alacağı günü bu neçə ildə həmişə gözləmişdi.

Görəsən, anasının ölümü niyə bu qədər ləngidi? Bunu Yusif indi heç cür ağlına sığışdıra bilmirdi. Çünki hələ o vaxt, düz on il əvvəl kənddən çıxıb şəhərə oxumağa gedəndə anası bugün-sabahlıq idi. Yusif getmək istəmirdi, xəlvətə çəkilib bütün günü ağlayırdı, hərdən-hərdən atası, ya bacısı axtara-axtara gəlib üstünə çıxanda, gözünün yaşını silə-silə:

- Qoy ölsün, dəfn eləyək, sonra gedərəm, - deyirdi.
Əgər bir axşam anasının xırıltılı səsi onu çağırmasaydı, yəqin ki, Yusif oxumağa tüpürüb qalacaqdı. İndiki kimi yadındaydı. Anası çarpayıda heysiz-hərəkətsiz uzanmışdı. Yusif stulu onun yanına çəkib oturdu. Gilə ağır-ağır başını qaldırıb:

- Deyəsən, ölməyimi gözləyirsiz? – dedi.
Yusif diksinib:
- Yox, - dedi, amma Gilənin üzünə baxa bilmədi. Sonra anasının bir azca toxtamış səsini eşitdi.
- Bəs onda niyə çıxıb getmirsən?
Elə həmin günün səhəri Yusif şəhərə yollandı.

Üç-dörd ay sonra atası dalınca gələndə:
- Anan sən gördüyün deyil, babatlaşıb, - dedi.
Doğrudan da Yusif yay vaxtı gəlib bir ay kənddə qalanda anası gözünə diri dəydi. Ayaqları yeri güclə tutsa da yorğan-döşəkdən qalxmışdı. Amma elə o vaxtdan Yusiflə Gilənin arasında pərdə yarandı.

Bir-birinin gözünə görünmək istəmirdilər, hərdən-hərdən danışanda da elə bil əlacsızlıqdan danışırdılar, söhbətləri də ana-bala söhbətinə yox, yad adamların ötəri danışığına oxşayırdı. Deyəsən, həm Gilə arvad elə bir vaxtda yatağa düşməyinə görə oğlunun qabağında xəcalət çəkirdi, həm də Yusif anasını ölüm ayağında qoyub getdiyini özünə bağışlaya bilmirdi.

Yusif:
- Axır ki, öldü, - dedi: - elə bil bu on ili gözlədiyi təkcə bu idi, anasının ölümüydü.
Kəndə gecənin yarısı çatdı. Qatardan düşüb yan-yörəsinə baxdı. Bir nəfər gözünə dəymədi.

Qatar bu balaca kənd stansiyasında bir azca nəfəsini dərib sonra ağır-ağır tərpəndi. Yusif ta ki, gözdən itənəcən qatarın dalınca baxdı.

Elə bil düşdüyü qatarla bura gətirdiyi o «şəhəri», o «şəhərli Yusifi» bu kəndin yanından ötürüb, indi, bu gecə haçansa bir vaxtlar ot biçən, mal-qara otaran həmin o «köhnə Yusifi» özüylə saxlamaq istəyirdi. Amma relsi adlayıb cığırla kəndə sarı üzüaşağı düşəndə hiss elədi ki, həmin o «şəhərli Yusifin» addımlarıyla yeriyir.

On il. Zarafat deyildi, düz on il. Yusif qəfil bu ötən vaxtdan diksinən kimi oldu. Görəsən, hələ bu kəndin, atasının, bacısının yadından çıxmamışdı ki? Bəlkə indi heç otağın ortasında uzanan o meyit də oğlunun yolunu gözləmirdi.

Yusif o vaxt evlənib şəhərdə özünə toy çaldıranda atasına xəbər eləmədi. Amma yəqin çağırsaydı da, atası gəlməyəcəkdi. Çünki atası axırıncı dəfə yanından gedəndə Yusif başa düşmüşdü ki, bu onların sonuncu görüşüdü. O vaxt atası Yusifin evlənməyinə razı olmadı.

- Oğlum, gəl əvvəlcə bacını köçürək, - dedi.
Qulam o gedən, birdəfəlik getmişdi: nə gəlininin, nə də o iki nəvəsinin üzünü görmüşdü. Bəlkə də bundan sonra bir də heç vaxt görməyəcəkdi.

Bu hardan ağlına girdi? Yusif kibrit yandırıb teleqramı işıqda bir də oxudu. Sonra cırıb tulladı. Belə də xəbər olar? «Sabah dəfndi, özünü çatdır». Kimin dəfnidi?

Yusif bu qaranlıqda ağappaq ağaran kağız qırıntılarını tapdalayıb torpaqla bir elədi. Elə bil onu bu kəndə gətirən bu bir parça kağız idi, anasının ölümü deyildi. Yenə anasının? Niyə axı, anasının? Axı, Yusif indi o kağız qırıntılarını birləşdirib o teleqramı təzədən oxusaydı yenə bir şey başa düşməyəcəkdi.

Görünür, Yusif anasının ölməyinə özü-özünü inandırmışdı. Çünki düz on il idi ki, anasını atasından alıb allaha tapşırmışdı. İndi də düz on il bundan qabaq ölən anasını dəfn eləməyə gəlmişdi.
Darvaza açıq idi. Bir xeyli dayanıb-durdu. Sonra astaca içəri keçdi.

Həyətdə çadır-zad qurulmamışdı, içəridən ağlaşma səsi də gəlmirdi, yazın ən gözəl çağıydı, ərik ağacları təzəcə çiçəkləmişdi, hər tərəf ağappaqdı, işıqlıydı, çəpərin qırağıyla axan arxın suyu da elə bil yazın bu gözəlliyinə sevinirdi, səssizcə axırdı, bu sakitliyi pozmaq istəmirdi.

Lap toy evinə oxşayırdı.
Bəlkə kimsə o teleqrammı yalandan vurmuşdu, onunla zarafat eləmək istəmişdi. Amma kim? Bu kənddə Yusif Cəlilovu dolamağa kim ürək eləyərdi? Qəfil elə bil özü də o addan diksindi.

Sonra eyvana qalxıb qapını döydü. Qapını Suğra açdı. Yusif onunla qabaq-qabağa dayanan bacısına baxdı. Üzü tamam qocalmışdı, elə bil saçları da üzünün dərdindən ağarmışdı. İndən belə bu qarımış qıza kim yiyə duracaqdı?

Yusif:
- Bağışla, - dedi, amma bacı deyə bilmədi, çünki o söz ağzından çıxsaydı hönkürəcəkdi.
… Haçansa Yusif uşaq idi, evin oğlan uşağı. O uşağın on yaşlı bir bacısı da vardı. Bu kənddə heç bir uşağın belə bacısı yoxudu. Allah saxlamış, bu yaşıyla elə bil gün kimi yanırdı. Elə o vaxtdan qohum-əqrəba, hər o qızı görən:

- Bu qız mənim oğlumundu, - deyərdi.
Qız uşağı evdə qonaqdı, deyiblər. Vaxtı çatan kimi halal süd əmmişin birinə qoşulub gedəcəkdi. Bu ev-eşiyə Yusif yiyə duracaqdı. Gərək onun başından bir tük də əskik olmayaydı. Bu evdə təkcə onun boyuna sevinərdilər. O qız da öz uşaqlığını o uşağa bağışlamışdı. Bütün günü işi-peşəsi onun dalınca gəzmək idi.

Qəfil yıxıla bilərdi. Qolu-qıçı əzilərdi. O uşağı gözdən qoymaq olmazdı. Ona görə də o uşağın öz bacısından zəhləsi gedərdi, hər dəfə hirslənib:
- Dalımca düşmə, rədd ol, – deyərdi.

Amma o qız ondan əl çəkməzdi. Sonra bacısını daşa basardı. Amma o qız yenə gələrdi.

Bir gün ikisi də arxın qırağında oturmuşdu. O uşaq qəfil bacısının gözündən yayınıb suya tullandı. O uşaq boğulurdu. O qız üzə bilməsə də o uşağı güclə çəkib sudan çıxardı. Sonra o qız arxın qırağında rahatca uzanmışdı. Amma o uşaq yenə hirsliydi, yenə bacısını daşlayırdı:

- Qoy çimim, qoy çimim, - deyirdi.
O daşlar hərdən-hərdən bacısının əl-ayağına dəyirdi. Amma o qız qımıldanmırdı, qalxmırdı. O qız ağlayırdı. Çünki indicə o uşaq, o qızın qardaşı az qala boğulacaqdı.

Sonra o qız yenə ağlayırdı. Amma gözündən yaş axmırdı, qan axırdı. O qızın torpağa səpilən uzun, qapqara saçlarının üstündə daş parçası diyirlənib qalmışdı.

Sonra o qız bir də bütün ömrü boyu ağlaya bilmədi. O uşaq da hər dəfə ağlayanda o saatca kiriyərdi. Çünki o qız hər dəfə şüşə gözünü çıxarıb o uşağın ovcuna qoyardı. O uşaq da şüşə gözü əlində oynada-oynada gülərdi.

İndi bacısı qabağında durmuşdu, hardasa gizlətdiyi şüşə gözünü bu qaranlıqda tapıb yerinə taxmağa fürsət eləməmişdi.

Ölən kim idi? Yusif kimin dəfninə gəlmişdi? Anasınınmı, atasınınmı? Haçansa o balaca uşağın əliylə atdığı daşla təkcə gözünü yox, baxtını kor qoyduğu bacısından, Suğradan bunu necə soruşacaqdı?

Qəfil hardansa qulağına səs gəldi.
- Get.
O səs də elə bil qocalmışdı.
Yusif bacısına baxdı.

Gecənin bu vaxtı hara gedəcəkdi? Həm də qohum-əqrəba nə deyər? Gəldi, heç dəfni də gözləmədi, elə qapıdan çıxıb getdi.
Yusif:
- Ölən kimdi? – dedi.

Amma sözünün cavabını gözləyən Yusifin üzündə azca da olsun dərd yox idi, şəhərdən çıxandan bəri ondan əl çəkməyən o maraq idi ki, deyəsən indi dərdini üstələyib ötmüşdü. Görəsən ölən kim idi?

Suğra susurdu, dişiylə dodaqlarını gəmirirdi, açıqda qalan o bircə gözü tez-tez qırpılırdı. Deyəsən, qabağında duran bu kişinin haçansa onun qardaşı olduğunu yadına salmaq istəyirdi. Amma bu yad kişini tanıya bilmirdi.

Suğra:
- Qulam kişini keçən ay basdırdıq, - deyib elə tez gözdən itdi ki, elə bil bayaqdan bu yad kişinin qabağında gecə köynəyində durduğunu ancaq indi başa düşüb utandı.
Ölən atasıydı.

Havadan yağış qoxusu gəlirdi. Kaş ki, indi yağış yağaydı. Onda Yusif iliyi islananacan o yağışın altda duracaqdı.

… Sonra pəncərədən anasıyla bacısı görünəcəkdi. Onlar bu yağışın altda atılıb-düşən uşağa baxacaqdılar. Sonra o uşağı səsləyəcəkdilər:

- Yusif, gəl evə, xəstələnərsən!
O uşaq qaçıb anasının qucağına girəcəkdi. Anası dəsmalla o uşağın saçını qurulayacaqdı. Bacısı:
- Mən də, mən də – deyəcəkdi, amma o uşaq bacısını yaxın buraxmayacaqdı, anasının qucağına sığınacaqdı.

Sonra lap yaxından qulağına səs gələcəkdi:
- Oğlum alim olacaq.
O uşaq başını qaldırıb gülə-gülə ona baxan atasını görəcəkdi…

Amma yox, elə bil bu kəndin buludları da ondan üz döndərmişdi, Allahın bir quruca yağışını da ona qıymırdılar.

Niyə çıxıb getmirdi? Nə lazımdısa hamısını öyrəndi. O kişinin dəfninə də özünü çatdıra bilməmişdi. Hələ ki, hamı yuxudaydı, çıxıb getmək lazımıdı. Əgər səhərə qalsa, eşidib- bilən tökülüb gələcədi. Yəqin onunla diz-dizə oturub dərdləşmək çoxunun ürəyindən keçirdi. Hətta ağlayan da tapılacaqdı. Zarafat deyil, Yusif Cəlilova qoşulub kiməsə ağlamağın ayrı ləzzəti var.

Yusif ancaq indi hiss elədi ki, şəhərdən çıxandan bəri ağlamaq istəyir: bəlkə də lap tez, o teleqrammı oxuyandan sonra. Amma ağlaya bilmirdi.

Niyə axı, ölən atasıydı? Niyə axı, bu neçə ili Yusifə öz ölümünü gözlədən o xəstə anası dura-dura Qulam özünü qabağa salmışdı? Əgər oğlundan ötrü darıxmışdısa Yusif işini-gücünü atıb gələrdi. Onsuz da çoxdandı ki, evdən ötrü burnunun ucu göynəyirdi. Ən çox atası üçün darıxmışdı. Çünki, anası yuxusuna tez-tez girirdi.

Yusif ürəyinin nəsə yumşaldığını hiss elədi. Amma yenə ağlaya bilmədi.

Bayaq qatarda mürgüləyəndə gördüyü o yuxu yadına düşdü. Dabanlarına sıxılıb addımlarını ağırlaşdıran qumlu səhralığın lap qurtaracağında gün batdıqca hava qaralırdı. Lap qabaqda o batan günə tərəf üz alıb gedən bir qadın görünürdü. Yusif anasının üzünü görə bilmirdi, ancaq kəlağayısını tanıyırdı. Güc-bəlayla ayaqlarını qumun cəngindən qurtarıb anasının ardınca qaçırdı. Amma nə illah eləyirdisə onu haqlaya bilmirdi.

Qəflətən Yusifə elə gəldi ki, bir az da ləngisə anasını da gözdən itirəcək, qaranlıq səhrada tamam tək qalacaq.
Və qəflətən qarşısında qapının ağzını kəsdirib-dayanan anasını gördü.

Düz on il əvvəl qoyub getdiyi həmin qadın idi: nə dəyişmişdi, nə də qocalmışdı.
Anası:
- Nə durmusan, gəl evə, - dedi, sonra oğlunu gözləməyib özü içəri keçdi. Elə bil bu qadın arada ötən o on il vaxtla dünəni dəyişik salmışdı. Amma anasının bu soyuqluğu Yusifi çaşdırmadı. Çünki anasıyla nədən söhbət edəcəyi indi onun özündən ötrü də sirliydi.

Yusif anasının ardınca kirimişcə içəri keçdi.
Anasıyla bacısı yan-yana oturmuşdu. Yusif bu işıqlı otaqda hər ikisinin üzünü apaydın görürdü.
- Gəl otur.

Yusif dinməzcə keçib oturdu. Bir xeyli araya sakitlik çökdü. Yusif tamam özünü itirmişdi, hər şey yadından çıxmışdı. Deyəsən, gecənin bu vaxtı hara gəlib

düşdüyündən də xəbəri yoxudu. İndi elə bil Suğrayla Gilənin qabağında stula pərçimlənib qalan ürəksiz, beyinsiz bomboş bədən idi, adam deyildi.

Bəlkə də indi o bədənə bir balaca toxunub-eləyən olsaydı, Yusif yıxılıb qalacaqdı.
- O kişinin dəfnində təkcə sən yoxdun.
Anasının səsiydi. Amma Yusif səs gələn tərəfə baxa bilmədi. Başı özündən xəbərsiz qabağındakı bomboş stolun üstünə düşdü. Deyəsən, bir balaca rahatlandı.

Yəqin ondan olsaydı, düz səhərəcən elə beləcə oturub qalardı.
- Suğra, get çayı qızdır.
Sonra çaydanın cızıltısı eşidildi. Yusif bildi ki, otaqda anasıyla tək qalıb. Başını qaldırdı. Anasının gözləri qupquruydu.

Çaydanın cızıltısı kəsilmişdi.
- Niyə elə baxırsan? Vallah, xəbərim yoxdu. Teleqramı bu gün almışam...
- O nə teleqramdı elə?

Suğra bir stəkan çay gətirib Yusifin qabağına qoydu, dönüb getmək istəyəndə anasının tərs-tərs ona baxdığını görüb dayandı.
- Bu nə deyir, qanmıram. Sənin işindi?
Suğra maddım-maddım Gilə anasına baxdı.
- Niyə quruyub qaldın, get qənd gətir.
Otaqda yenə ikisiydi. Yusifin gözləri anasının stolun üstə qalan bir cüt heysiz-hərəkətsiz əlinə zillənmişdi.
- Elə teleqramı alan kimi getdim bilet dalınca.
Anası dinmədi.

Yusif bayaqdan bəri anasının onu söyəcəyini, qapıdan qovacağını gözləyirdi, amma Gilənin üzü elə sakit idi ki, elə bil qabağında oturan bu kişi doğmaca oğlu deyildi, kimiydisə yad adamıdı, bir ay bundan qabaq ölən kişisindən ötrü ona başsağlığı verməyə gəlmişdi.
Gilə:
- Çayını soyutma, - dedi.

Qənddan stolun üstündəydi. Suğra yenə keçib anasının yanında oturmuşdu.
Yusif əlini qəndə sarı uzadıb tez də çəkdi, başını qaldırıb anasına baxdı. Yusifin öz sifəti bu dəqiqə qəribəydi, elə bil gülməyini zorla saxlayırdı. Səsi boğula-boğula:

- Bilirsən niyə gəlmişəm?  - dedi. - Gəlmişəm səni dəfn eləyəm. Gəlinin sənə bu gün o qədər ağlayıb ki… Heç üzünü görməyib, amma gözündən yaş leysan kimi axırdı.
Deyirəm ağlama, kirimir. Ona baxıram, paxıllığım tutur. O vaxt sənə o qədər ağlamışam ki, indi gözümdə yaş da qalmayıb.

Gilə üzünü yana çevirdi. Elə bil bu günəcən diri qalmağıma görə oğlundan utanırdı.
Birdən Yusifin içindən qəribə bir səs çıxdı. Bilmək olmurdu, şaqqanaq çəkir, yoxsa hönkürür. Bir xeyli sonra başını stolun üstünə qoyub sakitləşdi.
Yusif ayılıb özünə gələndə hava yavaş-yavaş işıqlanırdı. Otaqda təkcə bacısıydı. Deyəsən, Suğra bayaq necə oturmuşdusa eləcə də qalmışdı. Çünki qardaşının dikəldiyini görəndə də sifəti dəyişmədi.

Yusif:
Deyəsən yuxuya getmişdim? – dedi.
Suğra:
- Yox, ağlayırdın, - dedi.
Doğrudan da, Yusif hələ də içini çəkirdi.
Yusif başıyla boş stulu göstərib:
- Hara getdi? – dedi:

- Sənə yer salıb yatdı.
- Bəs sən niyə oyaqsan?
Suğradan səs gəlmədi.
Suğra nəsə elə bil qardaşına baxmırdı, öz balasına baxırdı.
- Yusif neçə uşağın var?
- İki.
- İkisi də oğlandı?

- Yox, biri qızdı.
- Böyüyü hansıdı?
- Qızdı.
Qəşəngdi?
Yusif istədi desin, sənə oxşayır. Çünki o qız doğrudan da eynən Suğranın uşaqlığıydı.

Amma Yusifin öz qızını bu qarımış, kor qıza oxşatmağa ürəyi gəlmədi.
- İstəsən səni də özümlə apararam. Evim böyükdü, otağın birini sənə verərik.
Suğra qardaşının sözünə sevinmək istədi. Amma canında hey qalmamışdı.

Əvvəllər Suğranın eynini açan təkcə atası Qulam idi. O kişi də axırıncı kərə Yusifin yanından qayıdandan sonra elə dəyişdi ki, heç tanımaq olmurdu. Görürdün, gecənin bir vaxtı durub həyəti gəzir. Sonra da hər dəfə gəlib Yusifin boş qalmış otağına girərdi:
- Mənim bu ev-eşiyim başsız, yiyəsiz qalacaq, a bala, - deyərdi.

Bütün günü özünə qarğış eləyərdi. Guya özü uşaqlıqdan oğlunun beyninə salmasaydı, Yusifin haçansa bir vaxt oxuyub şəhərdə qalmaq ağlına da gəlməyəcəkdi. Özünü söyəndən sonra bütün hirsini arvadının üstünə tökərdi. Yazıq

Giləyə ağından çıxana deyərdi. Amma sözünün əvvəli-axırı olmazdı, nə demək istədiyini özü də əməlli-başlı qana bilməzdi. Yəqin o sözü birbaşa, bütöv deməyə həm dili dolaşardı, həm də çəkinərdi. Bilmək istəyirdi ki, niyə axı, o vaxt arvadı hamını aldatdı, ölmədi.

Deyəsən, Qulam kişi axır vaxtlar ümidini təkcə o arvadın ölməyinə bağlamışdı. Bəlkə də onda Yusif qayıdıb-gələcəkdi.

Amma Qulam kişi ölümü arvadından qabaq hiss elədi. Gecə yerinə girib yatanda bir yanı da ağrımırdı, maşallah, top kimiydi. Səhər gec oyandı, heç bu vaxtacan yatıb qalmazdı. Qəfil burnuna nəsə qəribə qoxu dəydi, elə bil bu dünyanın havasından gəlmirdi. Arvadını çağırıb, dedi:

- Arvad, bu gecə yuxuda tozlu-torpaqlı yolla gedən bir dəstə adam gördüm. Çiyinlərində tabut aparırdılar. Camaatı yara-yara gedib o tabutun örtüyünü qaldırdım ki, baxam, oyandım. Özüm idim. O toz-torpağın qoxusu hələ də burnumdan getməyib. Eşit, gör, nə deyirəm. İşdi ölüb-eləsəm, Yusifə xəbər eləməyin. Qoy bir-iki ay keçsin, çağırarsız ki, Suğranı götürüb özüylə şəhərə aparsın. Neynək, qızımızın da baxtı belə gətirdi. Heç olmasa, gedib qardaşının uşaqlarıyla başını qatar.

Kişisinin söhbəti Gilə arvadı azca da narahat eləmədi. Qulam kişi danışdıqca o da astaca başını tərpədirdi. Elə bil söhbət kişisinin ölümündən yox, havanın isti ya soyuq olmasından gedirdi. Çünki o sözlərdə Gilə arvaddan ötrü təzə bir şey yoxudu, çünki o sözlər düz on il idi ki, özünün fikrində dolaşırdı.

Həmişəki kimi kişisini darvazayacan ötürüb işinin-gücünün dalınca yola salandan sonra eyvana qalxdı.
Kişisi evdə olmayanda Gilə də işsiz dayana bilmirdi. Nədənsə, bekar qalmağı hər gün səhərdən axşamacan dabanından tər axa-axa evə çörək qazanan kişisinin qabağında günah sayırdı.

Həyət-bacanı süpürmüşdü, hini, tövləni dünən təmizləmişdi. Yadına düşəndə ki, keçən həftə Qulam qırxdığı qoyunların yunu hələ də didilməyib, rahatladı.

Axşamçağı Qulam həyətə girəndə Gilə yunu didib təmizləmişdi, qabağına sərib çubuqla çırpırdı ki, yumşalsın. Qulam qızını soruşdu. Deyəsən, ona deməyə nəsə sözü vardı. Sonra hamama girdi. Qonşular Gilənin çığırtısına həyətə tökülüşəndə artıq gec idi. Qulam kişi keçinmişdi...
Suğranın sifəti birdən-birə dəyişdi. İndi yenə Yusifin qabağında dayanan bayaq qapıda rastlaşdığı həmin o bacısıydı.

- Yox, Yusif, əgər bir az əvvəl gəlsəydin, bəlkə də gedərdim. İndən belə anamı bu dörd divar arasında tək qoya bilmərəm, - dedi, - sonra Yusifə çarpayısını göstərib yatmağa getdi.

Yusif bir müddət çarpayının yanında dayanıb qaldı. Yaman yorulmuşdu, soyunub yatmaq istəyirdi. Amma bir azdan anasıyla bacısı yuxudan oyananda nədən söhbət eləyəcəkdi? Yəqin ki, onların da Yusifə deməyə sözü qurtarmışdı.

Yusif cibindən bir qat pul çıxarıb çarpayının üstünə atdı. Sonra səssizcə qapını açıb çıxdı. Amma o pulu nədən ötrü gətirdiyini, nəyə görə belə xəlvəti qoyub getdiyini özü də bilmədi.

***

Yusif bayaq düşdüyü cığırla ağır-ağır qalxırdı. Hələ ki, səssizlik idi. Bir azdan mal-qaranın böyürtüsü bu kəndi başına götürəcəkdi. Sonra darvazalardan əli çomaqlı uşaqlar çıxacaqdı, o mal-qaranı qabaqlarına qatıb hoyluya-hoyluya otarmağa aparacaqdılar. Kəndin o səs-küyü Yusifi bir də şəhərdə haqlayacaqdı. Qatardan düşüb hay-küylü küçələrdən keçəcəkdi.

Qapı açılanda, arvadı tez çarpayıdan qalxıb tələsik donunu geyinəcəkdi. Nədənsə o arvad bu neçə ili Yusiflə bir yastığa baş qoysa da, elə bil hələ də ondan utanır.
Eləcə pallı-paltarlı Yusifin üstünə qaçıb:
- Yazıq ana, - deyəcəkdi, - dəfni babat keçdimi?
Yusif istəyəcəkdi desin, ölən atam idi, amma deməyəcəkdi.
Görəsən, doğrudanmı ölən atasıydı?

Qəflətən qatarın səsi eşidildi. Yusif dayanıb o səs gələn tərəfə baxdı. Lap uzaqdan işara-işara ona sarı bir qatar şütüyürdü. Deyəsən, dünən gecə Yusifi bu kəndə gətirən qatar idi.

**ZARAFAT**

*(Hekayə)*

Bu dəfə Səlim kəndə vaxtından əvvəl qayıtdı.

Nəsə, darıxdı, başa düşdü ki, yazı gözləməyə hövsələsi qalmayıb.

Bir də ki, nə fərqi, kənd həmin kənddi, uzağı zığ-palçığı azca çox olacaq.

Amma Səlim gəlib gördü ki, vaxtını azdırmayıb, yaz bu kəndə özünü ondan əvvəl çatdırıb.

Deməli, bu bir həftəni əməlli-başlı dincələcəkdi, canına güc toplayacaqdı ki, bir də bura qayıdanacan o uzaq, o yad şəhərdə bir il gecə-gündüz canına zülm verməyə tab gətirə bilsin.

Gözünü açandan özünü yetim görüb onun-bunun qapısının ümidinə yaşamışdı.

Amma bu kəndin vur-tut bircə yetimi olduğundan hamı onu özünün doğması saymışdı - bir ilxı külfətini başlı-başına buraxan da, acından köpük qusan da Səlimi görəndə kişiləşərdi, ondan ötrü var-dövlətindən keçməyə hazır olardı.

Beləcə, bir vaxtlar bu kənddə hamı Səlimə görə bir-biriylə bəhsə girmişdi, bu bəhsə-bəhsdə udan da o yetim uşaq olmuşdu.

Odur ki, böyüyüb özünü tanıyandan Səlimin bircə istəyi o yetim uşağın bu kəndə olan borcunu qaytarmaq idi.

Dabanının təriylə yığdığı pulları hər yaz gətirib bu kəndə çatdırmasaydı canına rahatlıq verməzdi.

Birinin cırıldayan darvazasını yağladardı, o birinin hüzrlü evinə qənddən-düyüdən göndərərdi, ciblərini tamam-kamal boşaldandan sonra bu kəndin havasını doyunca çəkib ciyərinə doldurardı ki, bir də bu kəndə qayıdanacan nəfəsi kəsilməsin.

Bu dəfə elə bil Allah da Səlimin ürəyini oxuyub ona bu hövsələsizliyini bağışladı, hələ desən, ildə bir kərə bu kəndə gələn Səlimin qabağına ildə bir kərə bu kəndə gələn yazı vaxtından əvvəl çıxardı.

Amma Səlim kəndi düz-əməlli görə bilmədi, iki arvad baxmaq nədi, ona göz açmağa da imkan vermədi.

İnişil kəndə gələndə qayıdanbaş Fəxrəndəylə Səltənət də oğlanlarını Səlimə qoşmuşdular.

Fəxrəndənin oğlunun sümüyü bıçağa dirənmişdi - evlənmək istəyirəm, vəssalam.

Dul Səltənətin oğlu da yetim qaldığı gündən özündən müştəbeh idi, elə bilirdi, gedib şəhərdə oxumasa ağıl-dərrakəsinin üstünə nəsə gətirə bilməyəcək, cəmi məxluqat da onun günahı ucbatından bu yer üzündə çaşıb-qalacaq.

Diləyin ürəkdə qalması pis şeydi. Bu iki oğul balaya pul lazım idi, bu pulu da onlara yetirə biləcək bir bəndə vardısa o da Səlim idi.

Odur ki, Səlim inişil bu iki arvadın xətrinə dəyməkdən vaz keçib ikisinin də oğlunu

quzu balası kimi qabağına qatdı, özüylə pul dalınca apardı.

Amma indi bu kəndə o iki oğul baladan əvvəl qayıtmağıyla hər şeyi alt-üst elədi.

-Balam hanı?

Bir gün Fəxrəndə, bir gün Səltənət...

Elə bil növbə qurmuşdular, Səlimi çərlətməyincə əl çəkməyəcəkdilər.

Bu bir həftəni burnundan gətirdilər, Səlim də cibində nəyi vardısa arağa verib bu kəndə gözünün qırağıyla da baxmadı.

Bu gecə biryolluq gedirdi, özünü anda vermişdi, bir də bu yerlərə ayağı dəyməyəcəkdi.

***

Fəxrəndə gecənin bir aləmi taqqıltı səsinə yerindən dik atıldı.
Kişisi həmişəki kimi böyründəcə pallı-paltarlı yıxılıb-yatmışdı.

Evin, övlad-uşağın bütün yükü lap siftədən Fəxrəndənin üstündəydi.

Kişisi bir vaxtlar evin kişisi olmağa cəhd eləsə də sonradan Fəxrəndənin arvadlığının qabağında duruş gətirə bilməyib balalarından birinə dönmüşdü.

Bütün günü bağ-bostanda işləyib arvadından sonra yatağa girsə də əynini soyunmazdı ki, ömür-billah səksəkəli yatan arvadı qoy özü yuxudan ayılıb onu

sahmana salsın.

Amma bu gecə taqqıltı səsi bu evdə illərdən bəri hökm sürən bu vərdişi pozdu, Fəxrəndə kişisini eləcə pallı-paltarlı qoyub qapıya çıxdı.

Gecənin bu vədəsində bu qapıya kim gələ bilərdi?

Fəxrəndə Səlimi görəndə tamam karıxdı, alt paltarında olduğunu da unutdu. Səlim oğlu yaşında olsa da, hər halda, kişiydi.

Amma bu dəqiqə Səlimin duruşu, baxışı elə bir kökdəydi ki, kişi nədi, onu hansısa məxluqa aid eləməyin özü müşkül məsələydi.

Deyəsən, Səlim nəsə vacib bir xəbəri çatdırmağa gəlmişdi. Amma özünü cəmləyə bilmirdi.

Elə bil deyəcəyi sözlər təsbeh dənələri kimi dağılıb yerə səpələnmişdi, o da bu dənələrə baxa-baxa qalmışdı, bilmirdi əvvələ hansını taxsın, sonraya hansını...

Axır ki, birtəhər özünü dikəldib dilləndi:
-Bilirsən, kəndə niyə gəlmişəm? Neçə gündü, deməyə ürək eləmirəm.

Elə bilirdim, mən burda olanda meyit gəlib-çıxar, amma nəsə gecikirlər, gərək özüm gedib tələsdirəm. Fikirləşdim ki, xəbər eləməyib getsəm düz çıxmaz. Sən allah, o arvadı ovundur ki, özünə bir şey eləməsin.

Meyitlə özüm də qayıdıb gələcəm. Qısası, Səltənət arvadın oğlu ölüb.

Əvvəlini bir zülümlə başladığı bu sözləri Səlim birnəfəsə dedi, sonra da dərhal dönüb getdi, arxaya da qanrılmadı.

Fəxrəndə yerindəcə quruyub-qalmışdı. Bilmirdi neyləsin- qayıdıb kişisini oyatsın,

Səltənətin kişisiz-urvatsız evinə getsin, yoxsa səhərəcən elə burda bu cür dayanıb-qalsın...

Səltənətin evinə nə vaxt gəlib çıxdığından özünün də xəbəri olmadı. Amma qonşusunun da darvazasını nəsə açıq gördü. Elə bil gecənin bir aləmi deyildi, günün günortasıydı,

Səltənət də evində oturub Fəxrəndəni gözləyirdi. Bəlkə elə doğrudan da bu iki eyni dərdli arvaddan ötrü vaxt adlanan şey ancaq gecədən ibarət idi?

Fəxrəndə salam-kəlamsız keçib oturdu, yerini rahatlayanda qəfil küləyin uğultusunu eşitdi. O səsdən elə bil bir balaca keyi açıldı.

Deməli belə, gecənin bir aləmində kişisindən xəbərsiz qonşunun evinə gəlib. Fəxrəndənin bildiyi hələ ki, təkcə bu idi.

Deyəsən, Səltənət də Fəxrəndənin bu qəfil gəlişindən karıxmışdı.

-Fəxrəndə, bu şər vaxtı xeyir ola?

-Havadan hürkdüm, dedim bir sənə baş çəkim.

Uşaq deyildi ki, Fəxrəndənin bu sözləri elə-belə səs çıxarmaq xətrinə dediyini

Səltənət başa düşdü, amma özünü o yerə qoymadı.

-Bildim elə ona görə gəlmisən. Yoxsa, gecənin bu vədəsində hansı arvad hansı arvadın qapısını açar.

-Kol-köməksiz, qol-qanadsız arvadsan. Dedim, indi yəqin yağış başını deşir. Bəlkə kişimi göndərim bir əncam qılsın, dam-bacaya bir əl gəzdirsin.

Vallah-billah rahat otura bilmirəm, elə hey səni fikirləşirəm.

-Allah səni mənə çox görməsin, ay bacı.

Bu sözü deyəndə Səltənətin nəsə səsi titrədi. Az qala, Allah sənin balana necə qıydı, deyib bu gecəni indidən korlayacaqdı. Başa düşdü ki, hələ susmağı məsləhətdi, qoy Fəxrəndə özü danışsın.

-Soyuqdu, həm də əynin yalındı, qoy bir çay dəmləyim içək-qızışaq,- deyib, mətbəxə keçdi.

Çay nədi, bu boyda məşəqqətin içində adamın boğazından sumu keçərdi?

Səltənət mətbəxdəcə keyiyib-qalmışdı...

Səlim bayaq gəlib ona hər şeyi danışdı, Səltənət də bir xeyli götür-qoydan sonra dözmədi, üst-başını sahmana saldı ki, nə qədər ağır olsa da bu xəbəri gedib Fəxrəndəyə çatdırsın.

Elə təzəcə qapıdan çıxmağa hazırlaşırdı ki, Fəxrəndə özü gəldi. O arvaddan

çıxmayan iş, görən, gecənin bir aləmi bura niyə gəlmişdi?

Bayaq Səlim də Fəxrəndənin oğlunun bəd xəbərini çatdıranda içkiliydi, ayaq üstə güclə dururdu.

" Dilim-ağzım qurusun, bəlkə Səlim qapıları səhv salıb?"

***

Hava get-gedə əməlli-başlı kişiləşirdi, uğultu səsindən az qalırdı, qapı-pəncərə də dil aça. İki arvad qabaq-qənşər oturub maddım-maddım bir-birinə baxırdı.

Bayaqdan süfrəyə gələn iki stəkan çaydan qurtum da içilməmişdi.

-Bir yağış-çovğunun səsinə bax, elə bil quyruğu tapdaqlı qancıqdı, hürür. Yox, sabah kişimi hökmən göndərəcəm, gəlib qapı-pəncərənin dərmə-deşiklərini tıxasın.

Tək-təkinə arvadsan, azarlayıb eləyərsən xəbər də tutmarıq.

Səltənət Fəxrəndəni həm eşidirdi, həm eşitmirdi. Bu saat gözünü, lap elə qulağını da Səlimin bayaqkı o içkili sifəti tutmuşdu.

"Allah, sən özün bu xətəri məndən uzaq elə...

Fəxrəndəyə nə var ki, iş-peşəsi doğub-törətmək olub. Cürüdən biri artıq, biri əskik, dünya dağılmadı ki? Bəs, mənim o bircəciyimə qıysan başıma haranın külün töküm?"

-Ay arvad, fikir vermə, bu yağış-çovğunu azmı görmüşük? Bənd olma, öyrəncəliyəm.

Yağış nədi, bu dəqiqə Fəxrəndənin yadına yağışmı düşürdü? Yağır, cəhənnəmə yağsın, istəyir lap göylə yer birləşsin.

"Yazıq Səltənət hardan biləsən ki, havanı yağış yox, ölüm qoxusu tutub. İlahi, görən, bu arvad o bircə balasının ölüm xəbərini alanda havalanmayacaq ki?"

-Sən dedin, mən eşitdim, bəs adamlığıma nə gəlib? Əgər mənim yerimdə olsaydın sənmi öz kişinə qıymazdın? Dünyasında inanmaram.

Söhbət uzandıqca Fəxrəndə də mətləbdən uzaqlaşırdı.

Deyəsən, belə getsə, gecənin bir aləmində bu evə nədən ötrü gəldiyi də yadından çıxacaqdı. həm də elə bil canında qaldıqca o müdhiş xəbərin vahiməsi də azalırdı, sovrulub-itirdi.

Xəbər köhnəlirdi. Fürsəti tamam qaçırsaydı, Fəxrəndə o dəhşəti Səltənətə elə deyəcəkdi ki, bayaqdan danışdıqlarıyla o xəbərin arasında fərq olmayacaqdı. Yəni, yağış yağır, külək əsir, oğlun da ölüb, vəssalam.

Ya da o xəbəri bura necə gətirmişdisə, lazımsız bir şey kimi eləcə də özüylə qaytarıb-aparacaqdı.

-Belə də dərd-azar olar, düşdük?

"Yaxşı ki, Səlimin adını çəkmədim, Cəltənət o saatca şübhələnərdi."

Səltənət başını qaldırıb bu gecə birinci kərə Fəxrəndənin düz gözlərinin içinə baxdı.

"Oğlunun ölməyindən Fəxrəndənin də xəbəri var? Bəs onda niyə bayaqdan boş-boş zəvziyir, eyninə də deyil. Yəqin Səlim abrına qısılıb, mənə dəyəndən sonra gedib bu xəbəri Fəxrəndənin özünə də çatdırıb.

Bir də Fəxrəndəyə nə var, mənim kimi gözünün ağı-qarası bircə balası deyil ki, durub saçını yola, üz-gözünü cıra."
Səltənət özündə nəsə bir yüngüllük hiss elədi.

"Amma yox, Səlimi söhbətə qatmağın hələ vaxtı deyil, qoy Fəxrəndə özü dillənsin."

-Hə, belə yağsa, zığ-palçığ həyət-bacanı başına götürəcək.
Səltənətin o cür dərdli-dərdli baxmağından Fəxrəndənin ürəyi ağladı.

"Ay Səltənət, axı, hardan biləsən ki, gecənin bu aləmində sənin qapına qonşun Fəxrəndənin qiyafəsində əzrayıl gəlib. İndi hər şeyi biləndən sonra sənə bu xəbəri gətirən Fəxrəndəyə ömrünün axırınacan lənət oxuyacaqsan.

Oğlun hələ sənin üçün sağ-salamatdı, amma bilmirsən ki, canı mənim əlimdədi, istəsəm onu indi də öldürə bilərəm, yarım saat sonra da.

Niyə axı, o yetim köpəyoğlu bu xəbəri gəlib mənə dedi, sənin özünə deyə bilməzdi, o ata-anası bilinməyən?"

Fəxrəndə üzünü yana çevirdi, deyəsən, qorxdu ki, Səltənət içindəkiləri çölündən oxuyar.

"Yox, dilim gəlmir. Bəlkə evə qayıdıb kişimi oyadım, o gəlib desin? Qoy bir səhər açılsın. Deyəsən, hava da yavaş-yavaş işıqlanır. Hələ tələsmək lazım deyil, gözləmək məsləhətdi. Gözləyəcəm... gözləyəcəm... gözləyəcəm..."

Sonra araya ölü bir sükut çökdü.

***

Hər iki arvad qəflətən təpiklə açılan qapının səsindən diksindi. Qapının ağzında dayanıb-duran Səlimin sifəti meyit rəngindəydi.

Deyəsən, içkinin havası da canından tamam çəkilib-getmişdi.
-Allahınız gətirdi ki, hirsimi boğa bildim. Yıxılın-yatın, ölən-zad yoxdu, zarafat eləyirdim.
Səlimin səsi də elə bil o dünyadan gəlirdi. Sözünü deyib açdığı kimi də zərblə qapını çırpıb getdi.

Fəxrəndəylə Səltənət bir xeyli maddım-maddım bir-birinə baxdılar.
-Səhər açılır, bəlkə yer salım elə burda yatasan?

-Yox, kişim yuxudan oyanıb məni yanında görməsə qorxub-eləyər.
Fəxrəndə Səltənəti eləcə qoyub ağır-ağır qapıya sarı getdi. Qapını açanda qəfil içəri dolan işıqdan gözləri qamaşdı.

Hər tərəf ağappağıdı.